## Müharibəyə görə Rusiyanı tərk edən vətəndaşların əmlakı müsadirə edilə bilər




**Ukrayna müharibəsinə görə Rusiyanı tərk etmiş bir sıra vətəndaşların əmlaklarının müsadirə edilməsi ilə bağlı layihə hazırlanır.** APA-nın Moskva müxbiri xəbər verir ki Dövlət Dumasının deputatları öz hərəkətləri ilə Rusiyaya zərər vuran və ölkəni tərk edən rusiyalıların əmlaklarının müsadirə edilməsi layihəsinin hazırlanmasının üzərində fəal iş aparır.

*Qeyd edək ki, Dövlət Dumasının spikeri Vyaçeslav Volodin bildirib ki, Rusiyada "nasistlərə açıq dəstək verən", öz ölkəsini təhqir edən vətəndaşlara münasibətdə Cinayət Məcəlləsinə əmlakın müsadirə edilməsi haqqında bənd əlavə edilməlidir.*



## Qrip peyvəndi bütün poliklinikalara paylanılıb

İnsanlar heç bir ödəniş etmədən qripə qarşı peyvənd oluna bilərlər

İnsanlar rahatlıqla öz yaşayış məntəqələrinə yaxın ailə sağlamlıq mərkəzlərinə müraciət edərək heç bir ödəniş etmədən qripə qarşı peyvənd oluna bilərlər.

(səh.2)

№ 10 (5771), 2023-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 19 yanvar 2023-cü il (cümə axşamı)



## Helikopter qəzası Ukraynanı sarsıtdı

Müharibədə hansı tərəfin qalib olması mart ayında aydın olacaq

**Yanvarın 18-də Ukraynanın Kiyev vilayətinin Brovarı şəhərində helikopter qəzaya uğrayıb. Göyərtəsində 9 nəfərin olduğu helikopterin uşaq bağçası və yaşayış binasının üzərinə düşməsi nəticəsində ümumilikdə 19 nəfər ölüb, 29 nəfər yaralanıb.**

Nəticədə Ukraynanın daxili işlər naziri Denis Monastırski, daxili işlər nazirinin birinci müavini Yevgeni Yenin və Daxili İşlər Nazirliyinin dövlət katibi Yuri Lubkoviç həlak olublar.

Ukrayna Daxili İşlər Nazirliyi Kiyev vilayətində baş verən helikopter qəzasının səbəbləri ilə bağlı açıqlama yayıb. Qəzanın başvermə səbəbləri arasında helikopterdə texniki nasazlıq, təhlükəsizlik qaydalarının pozulması və diversiya ehtimalları mümkün sayılır.

(səh.4)



## Bakı növbəti görüşə hazırdır

Azərbaycan Ermənistandan sülh müqaviləsi üzrə danışıqlara razılıq verməsini gözləyir

**Azərbaycan Ermənistandan sülh müqaviləsi üzrə növbəti danışıqlara razılıq verməsini gözləyir.**

Bunu Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın ölkə parlamentində sualları cavablandırarkən rəsmi İrəvanın bir aydır Bakıdan sülh müqaviləsinə təkliflərlə bağlı cavab gözləməsinə, Azərbaycan tərəfinin guya danışıqları dayandırması ilə bağlı açıqlamalarına münasibət bildirərkən deyib.

## "Azərbaycanlı uşaqlara Bayraktar adı verilir"

Ərdoğan: "İndi də "Qızıl Elma" və milli döyüş təyyarələrimiz gəlir"



**"Azərbaycanlı uşaqlara Bayraktar adı verilir".**

"Report"un xəbərinə görə, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Türkiyə Böyük Millət Məclisindəki (TBMM) çıxışında deyib.

O bildirib ki, "Bayraktar-TB 2" Liviyadan Qarabağa qədər hər yerdə öz sözünü deyib: "Əlbəttə, işlərimiz davam edir. İndi də "Qızıl Elma" və milli döyüş təyyarələrimiz gəlir.

PUA-larımız terrorçuları məhv edir. Əlbəttə, uğurlarımızın davamı gələcək. Onu da deyim ki, "Baykar" müdafiə sənayesi şirkəti həyata keçirdiyi layihələrlə bağlı dövlətdən pul almır".

# Ermənilərin növbəti yalanı ifşa olundu

Rusiya sülhməramlıları Qarabağda yaşayan azyaşlı ermənilərin Ermənistandan Xankəndiyə aparılmasının görüntülərini yayılıb



**Rusiya sülhməramlı kontingenti Qarabağda yaşayan azyaşlı ermənilərin Ermənistandan Xankəndiyə aparılmasının görüntülərini yayıb.**

Rusiya sülhməramlı kontingentinin məlumatına görə, bir aydan çox Ermənistanda qalan 21 azyaşlı və onları müşayiət edən 6 nəfər yanvarın 17-də Xankəndiyə qaytarılıb.

Rusiya sülhməramlılarının yaydığı görüntülərdən də aydın olur ki, uşaqları daşıyan avtomobillər heç bir maneə olmadan Laçın-Xankəndi yolunda aksiya keçirilən yerdən keçir. Ermənilərin iddia etdiyi kimi, onlara qarşı hər hansı "cinayət əməli" törədilmir, yaxud hansısa uşaq "huşunu itirmir".

(səh.2)

# Əfv sərəncamı 10 mayda gözlənilir

Əliməmməd Nuriyev: "Ümid edirik ki, azadlığa çıxmış insanlar ölkəmizin inkişafına öz töhfəsini verəcək"



**Azərbaycan Prezidenti yanında Əfv Məsələləri Komissiyasının növbəti iclası keçirilib.**

Qeyd edək ki, bu, komissiyanın ikinci iclasıdır. Ötən iclasda 120 müraciətə baxılıb. Əfv Komissiyasının növbəti iclasının yanvarın 24-də keçirilməsi nəzərdə tutulub.

Əfv Məsələləri Komissiyasının üzvü, hüquqşünas Əliməmməd Nuriyev "Şərq"ə açıqlamasında bildirib ki, hansı kateqoriyadan olan cinayəti törətməsinə baxmayaraq, hər kəsin müraciəti hərtərəfli araşdırılır. Onun sözlərinə görə, iki iclasda 200-dən artıq müraciətə baxılıb...

(səh.2)



## Xoy şəhərində zəlzələdə 120 nəfər yaralanıb

**Xoy şəhərində baş vermiş zəlzələdə xəsarət alanların sayı artıb.**

APA "Tasnim"ə istinadən xəbər verir ki, Xoy şəhərində 5,4 bal gücündə baş verən zəlzələdə 120 nəfər xəsarət alıb.

Qərbi Azərbaycan əyalətinin Qızıl Aypara cəmiyyətinin sədri Həmid Məhbubi jurnalistlərə bildirib ki, zəlzələ nəticəsində 5 kənddə 20 evə ziyan dəyib.

"İndiyə qədər 120 nəfərin yaralandığı müəyyən edilib", - o qeyd edib.

O, bölgədə axtarış-xilasetmə işlərinin aparıldığını vurğulayıb.

## Azərbaycanda boşanmaların sayı azalıb



**Azərbaycanda boşanmaların sayı azalıb.**

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, ötən ilin yanvar-noyabr aylarında qeydiyyat şöbələri tərəfindən 57033 nikaha daxilolma və 14525 boşanma halları qeydə alınıb.

Əhalinin hər 1000 nəfərinə 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə nikahların sayı 5,5-dən 6,2-yə qədər artıb, boşanmaların sayı isə azalaraq 1,7-dən 1,6-ya düşüb.

## 6 nəfər vəfat edib

75 yeni yoluxma faktı qeydə alınıb

**Azərbaycanda son sutkada koronavirus (COVID-19) infeksiyasına 75 yeni yoluxma faktı qeydə alınıb, 59 nəfər müalicə olunaraq sağalıb.**



Azərbaycan Respublikasının ərazisində COVID-19 ilə bağlı son vəziyyət

| Ümumi | | Bu gün 18.01.2023 | |
|---|---|---|---|
| Ümumi yoluxanların sayı | 827 525 | Yeni yoluxanların sayı | 75 |
| Ümumi sağalanların sayı | 817 001 | Yeni sağalanların sayı | 59 |
| Aktiv xəstə sayı | 464 | Bugünkü test sayı | 2 851 |
| Ümumi test sayı | 7 464 270 | Bugünkü ölüm sayı | 6 |
| Ümumi ölüm sayı | 10 060 | | |

Koronavirus İnformasiya Portalı koronavirusinfoaz KoronaVirus informasiya portalı KoronaVirus info

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 6 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 827 525 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 817 001 nəfər müalicə olunaraq sağalıb, hazırda 464 aktiv xəstə var. Bu günə qədər 10 060 nəfər vəfat edib.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 2 851, bu günə qədər isə ümumilikdə 7 464 270 test icra olunub.*



## "Biz erməni əhalisini öz tərəfimizə çəkməliyik"

Kərim Kərimli: "Mən 100 faiz əminəm ki, indi də Azərbaycan dövlətinin vətəndaşı olaraq sakit, rahat yaşamaq istəyən, buna can atan ermənilər var"

(səh.5)



## Laçın yolundan silah, sursat və minalar daşınıb

Bu məlumat aksiyadan aylar əvvəl Rusiyaya ötürülüb, amma seyrçi qalıblar

(səh.3)



# Prezident İlham Əliyev Davosda bir sıra görüşlər keçirib

## Azərbaycanda dayanıqlı enerji təchizatına önəm verilməsinə dair fikir mübadiləsi aparılıb

**Prezident İlham Əliyevin yanvarın 18-də Davosda "Signify" şirkətinin baş icraçı-direktoru Erik Rondolat ilə görüşü olub. Erik Rondolat dövlət başçısına Azərbaycanda, o cümlədən işğaldan azad edilmiş ərazilərdə - Şuşa və Ağdam şəhərlərində həyata keçirilən layihələrin gedişatı və perspektivləri barədə məlumat verib.**

Prezident İlham Əliyev "Signify" şirkətinin Azərbaycandakı fəaliyyətini yüksək qiymətləndirib. Bakı, Sumqayıt, Gəncə də daxil olmaqla artıq 11-dən çox şəhərin işıqlandırma sistemlərinin ağıllı layihələr, ağıllı həllər vasitəsilə həyata keçirildiyini xüsusi qeyd edib. Bunun Azərbaycanın son illərdə yaşıl enerji siyasətinin dəstəklənməsi istiqamətində ciddi addımlarından biri olduğunu bildirib. Qeyd edilib ki, bu yeni texnologiyalar nəticəsində elektrik enerjisi sərfinə ciddi şəkildə qənaət olunacaq. "Signify" şirkətinin baş icraçı-direktoru diqqətə çatdırıb ki, serverlər Azərbaycanda yerləşdiriləcək və bütün bu şəhərlər ağıllı sistem vasitəsilə vahid mərkəzdən idarə olunacaq. Bu, Azərbaycana əlavə enerji sərfiyyatına qənaət imkanı yaradacaq. Erik Rondolat Prezident İlham Əliyevə, eyni zamanda Bakı şəhərində həyata keçiriləcək fasad işıqlandırılması, Şuşada teleqüllənin işıqlandırılması, aqrar sektorda reallaşdırılacaq layihələr barədə məlumat verib. Bildirilib ki, artıq aqrar sektorda layihələrin icrasına başlanılıb. Bu, istixanalarda məhsuldarlığın iki dəfədən çox artımına gətirib çıxaracaq. Enerji sərfiyyatına ciddi şəkildə qənaət olunacaq ki, bu da biznesin dəstəklənməsi baxımından xüsusi əhəmiyyətə malikdir. Sonda dövlət başçısı bu layihələrin əhəmiyyətini qeyd edib və "Signify" şirkəti ilə Azərbaycanın aidiyyəti qurumları arasında əməkdaşlığın davam etdirilməsinin məqsədəuyğun olduğunu vurğulayıb.

Dövlət başçısı Davosda "Kromatix SA" şirkətinin baş icraçı-direktoru Rafik Hanbali ilə də görüşüb. Görüşdə "Kromatix SA" şirkətinin fəaliyyəti və istehsal etdiyi məhsullar, o cümlədən Azərbaycanda yeni texnologiyaların tətbiqi ilə enerjinin istehsalı məsələlərindən danışılıb. Şirkətin xüsusi texnologiya və örtüklər vasitəsilə bina fasadlarının şüşə hissələrinin günəş panelləri kimi istifadəsinə imkan verən texnologiyalar istehsal etdiyi bildirilib. Azərbaycanda dayanıqlı enerji təchizatına önəm verilməsi, xüsusilə işğaldan azad edilmiş ərazilərin yaşıl enerji zonası elan olunması nəzərə alınaraq, ölkəmizdə həmin texnologiyaların bina və tikintilərdə də istifadəsinə dair fikir mübadiləsi aparılıb. Rafik Hanbali "Kromatix SA" şirkətinin ölkəmizdə, xüsusilə Ələt Azad İqtisadi Zonasında müəssisənin yaradılması planları barədə dövlətimizin başçısına məlumat verib. Pilot layihə kimi "Kromatix SA" şirkətinin Cəbrayıl rayonunda məktəbin binasının üzlənməsi ilə bağlı həyata keçirməyi planlaşdırdığı layihənin önəmi qeyd edilib. Gələcəkdə bunun digər məktəblərdə də tətbiq olunmasının nəzərdə tutulduğu vurğulanıb. Dövlət başçısı şirkətin Azərbaycanda planlaşdırdığı layihələri dəstəkləyərək, ölkəmizdə iqtisadi inkişaf imkanları, daxili bazara və bölgədəki digər bazarlara çıxış üçün mövcud şərait barədə məlumat verib. Görüşdə "Kromatix SA" şirkəti ilə Azərbaycanın Şəhərsalma və Arxitektura Komitəsi arasında əməkdaşlığın təməlinin qoyulduğu bildirilib. Prezident İlham Əliyev "Kromatix SA" şirkətinin rəhbərini Azərbaycana, o cümlədən işğaldan azad olunmuş ərazilərə səfərə dəvət edib. Dəvət minnətdarlıqla qəbul olunub.

**İsmayıl**

# Bakı növbəti görüşə hazırdır

## Azərbaycan Ermənistandan sülh müqaviləsi üzrə danışıqlara razılıq verməsini gözləyir



**Azərbaycan Ermənistandan sülh müqaviləsi üzrə növbəti danışıqlara razılıq verməsini gözləyir.**

**Bunu Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın ölkə parlamentində sualları cavablandırarkən rəsmi İrəvanın bir aydır Bakıdan sülh müqaviləsinə təkliflərlə bağlı cavab gözləməsinə, Azərbaycan tərəfinin guya danışıqları dayandırması ilə bağlı açıqlamalarına münasibət bildirərkən deyib.**

A.Hacızadə deyib ki, Azərbaycan və Ermənistan arasında normallaşma prosesinin, o cümlədən sülh müqaviləsinin imzalanmasının təşəbbüskarının Azərbaycan olduğunu nəzərə alaraq, Ermənistan tərəfinin bu cür açıqlamalar verməsi təəccüb doğurur:

"Sülh sazişi üzrə danışıqların bir qayda olaraq Ermənistan tərəfindən təqdim olunan şəkildə aparılmadığını qarşı tərəfə bir daha xatırlatmaq istərdik. Məlumdur ki, sülh sazişi üzrə mətn müzakirələr üçün Azərbaycan tərəfindən ötən ilin 2 oktyabr tarixində Cenevrədə təqdim edilib və sənəd üzrə müzakirələr Vaşinqtonda davam etdirilib. Danışıqlar prosesinin davamı olaraq üçüncü görüşün Moskvada 23 dekabr 2022-ci il tarixində keçirilməsinə razılıq verilməsinə baxmayaraq, məhz Ermənistan tərəfi birtərəfli əsasda görüşdə iştirak etməyib, təəssüf ki, bununla danışıqlar prosesini pozub.

Bir daha bəyan edirik ki, Azərbaycan sülh prosesinin 5 baza prinsipi əsasında sülh sazişinin imzalanmasına və sözügedən sazişin mətninin təşəbbüskarı kimi danışıqlar üzrə növbəti görüşün qısa müddət ərzində keçirilməsinə hazırdır. Azərbaycan tərəfi Ermənistandan sülh prosesinə xələl gətirən təxribatçı açıqlamalar yox, məhz sülh müqaviləsinin mətni üzrə danışıqlar aparmaq məqsədilə növbəti görüşün keçirilməsinə razılıq verməsini gözləyir", - XİN rəsmisi qeyd edib.

### Qrip peyvəndi bütün poliklinikalara paylanılıb

#### İnsanlar heç bir ödəniş etmədən qripə qarşı peyvənd oluna bilərlər



**İnsanlar rahatlıqla öz yaşayış məntəqələrinə yaxın ailə sağlamlıq mərkəzlərinə müraciət edərək heç bir ödəniş etmədən qripə qarşı peyvənd oluna bilərlər.**

Bunu dünən Səhiyyə Nazirliyinin rəsmi "İnstagram" səhifəsində canlı yayımda nazirliyin mütəxəssis-eksperti, infeksionist Vasif Əliyev bildirib.

V.Əliyev qeyd edib ki, Səhiyyə Nazirliyi tərəfindən ölkəyə inaktiv qrip peyvəndi (İİV4) gətirilərək bütün poliklinikalara paylanıb.

Onun sözlərinə görə, risk qrupunda olan insanlar əvvəllər peyvənd etməyiblərsə, fevral ayına qədər peyvənd vurdura bilərlər.

"Qrip əsasən oktyabr ayından başlayaraq dekabr ayında artan və hər il aprel-may aylarını da əhatə edən dövrdə aktiv görülür. Bu səbəbdən qrip peyvəndi hər il oktyabr ayından başlayaraq vurulmalıdır. Bununla yanaşı, qripdən qorunmaq üçün tez-tez əlləri yumaq, sağlam qidalanma və mövsümə uyğun geyinmək kimi şəxsi ehtiyat tədbirləri ilə yanaşı, xüsusilə, peyvənd risk altında olan insanlar üçün ən təsirli qoruma üsuludur",- deyə o bildirib.

# Ermənilərin növbəti yalanı ifşa olundu

## Rusiya sülhməramlıları Qarabağda yaşayan azyaşlı ermənilərin Ermənistandan Xankəndiyə aparılmasının görüntülərini yayılıb



**Rusiya sülhməramlı kontingenti Qarabağda yaşayan azyaşlı ermənilərin Ermənistandan Xankəndiyə aparılmasının görüntülərini yayıb.**

**APA xəbər verir ki, Rusiya sülhməramlı kontingentinin məlumatına görə, bir aydan çox Ermənistanda qalan 21 azyaşlı və onları müşayiət edən 6 nəfər yanvarın 17-də Xankəndiyə qaytarılıb.**

Rusiya sülhməramlılarının yaydığı görüntülərdən də aydın olur ki, uşaqları daşıyan avtomobillər heç bir maneə olmadan Laçın-Xankəndi yolunda aksiya keçirilən yerdən keçir. Ermənilərin iddia etdiyi kimi, onlara qarşı hər hansı "cinayət əməli" törədilmir, yaxud hansısa uşaq "huşunu itirmir".

Qeyd edək ki, Ermənistan tərəfi müxtəlif səviyyələrdə ağlasığmaz yalan və böhtanlar uyduraraq, Azərbaycanın ünvanına ittihamlar səsləndirir. Rusiya sülhməramlı kontingentinin yaydığı məlumat və video isə heç bir fakta söykənməyən bu ittihamları açıq şəkildə ifşa edir.

*Xatırladaq ki, aksiya başlamazdan əvvəl uşaq "Eurovision"u ilə ələqədar bir qrup azyaşlı Xankəndidən Ermənistanda gedib, orada qalmışdı. Onlar yanvarın 17-də Rusiya sülhməramlılarının avtomobilləri ilə Ermənistandan Xankəndiyə qaytarılıb. Avtomobillərin Laçın-Xankəndi yolunda aksiya keçirilən yerdən maneəsiz keçidinə şərait yaradılıb. Bu, bir daha sübut edir ki, yolun bağlı olması, blokada barədə erməni tərəfinin iddiaları əsassızdır. Humanitar yüklərin və mülki şəxslərin Laçın-Xankəndi yolunun aksiya keçirilən hissəsindən keçidi üçün heç bir maneə yoxdur.*

**Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Türkiyənin Antalya şəhərində keçiriləcək Diplomatik Forumda (Antalya Diplomatik Forumu) iştirak edəcək.**

"Report" "Sputnik Armenia"ya istinadən xəbər verir ki, bunu nazir parlamentdə çıxış edən zamanı deyib. A.Mirzoyan Ankaranın dəvətini qəbul etdiyini söyləyib.



# Mirzoyan Ankaranın dəvətini qəbul edib

## Ermənistanın XİN başçısı Türkiyəyə səfər edəcək

Onun sözlərinə görə, forum çərçivəsində ikitərəfli görüşlərin keçirilməsi də istisna edilmir.

XİN başçısı qeyd edib ki, Ermənistan-Türkiyə münasibətlərinin normallaşması üzrə xüsusi nümayəndələrin görüşü yaxın zamanlarda planlaşdırılmır: "Ölkələr arasında hava yolu ilə yüklərin daşınmasına qoyulan qadağa artıq aradan qaldırılıb. Digər məsələlərlə bağlı razılaşmalar isə uzaqda deyil".

Qeyd edək ki, Türkiyə Azərbaycan torpaqlarının işğalına etiraz olaraq 1993-cü ildən Ermənistanla sərhədlərini bağlayıb və İrəvanla bütün əlaqələrini kəsib.

İkinci Qarabağ müharibəsindən - Azərbaycan torpaqları erməni tapdağından azad olunandan sonra rəsmi Ankara və İrəvan arasında münasibətlərin normallaşması istiqamətində addımlar atılıb.

Türkiyə Serdar Kılıçı, Ermənistan isə Ruben Rubenyanı münasibətlərin normallaşması üzrə xüsusi nümayəndə təyin edib. Onların ilk görüşü 2022-ci il yanvarın 14-də Rusiyanın paytaxtı Moskvada keçirilib. İkinci və üçüncü görüş isə fevralın 22-də və mayın 3-də Avstriyanın paytaxtı Vyanada baş tutub.

Ötən il oktyabrın 6-da Çexiyanın paytaxtı Praqada Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Ermənistanın baş naziri Nikol Paşinyan arasında görüş olub. Praqa görüşü N.Paşinyanın 2018-ci ildə hakimiyyətə gəlməsindən sonra Türkiyə Prezidenti ilə ilk görüşü olub. Bu ilin yanvar ayında Türkiyə ilə Ermənistan arasında birbaşa hava daşımaları başlayıb.

*Xatırladaq ki, Antalya Diplomatiya Forumu gələn ilin aprelin 28-30-da keçiriləcək.*

# Blokadadan söhbət gedə bilməz

## Bakının Laçın yolunda məqsədi ekoloji nəzarətdir



**İki gün öncə xarici işlər naziri Ceyhun Bayramov və Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov arasında telefon danışığı olub.**

Telefon danışığı zamanı Azərbaycan və Rusiya arasında mövcud ikitərəfli əməkdaşlıq gündəliyində duran aktual məsələlər, o cümlədən Laçın yolu ətrafında cari vəziyyət müzakirə mövzusu olub.

Nazir Ceyhun Bayramov, guya, Azərbaycan tərəfindən Laçın yolunun bağlanması, Azərbaycan ərazilərində yaşayan erməni sakinlərin blokadaya alınması, humanitar böhran vəziyyətinin yaranması barədə iddiaların əsassız olduğunu qeyd edib. Bu xüsusda, Laçın yolundan hər gün onlarla nəqliyyat vasitəsinin, sülhməramlı kontingentin avtomobillərinin, Beynəlxalq Qızıl Xaç Komitəsinin, erməni təcili tibbi yardım maşınlarının keçməsinin Ermənistan tərəfinin əsassız iddialarını təkzib etdiyi vurğulanıb.

*Telefon danışığını "Şərq"ə dəyərləndirən sabiq xarici işlər naziri Tofiq Zulfüqarov vurğulayıb ki, bu məsələdə Azərbaycan və Rusiyanın mövqeyi yaxınlaşma tendensiyasındadır:* "Burada söhbət ermənilərin dediyi kimi, blokadadan getmir və gedə də bilməz. Çünki rəsmi Bakının məqsədi bu deyil. Bizim məqsədimiz ekoloji nəzarətdir. Yaxın gələcəkdə isə digər dövlət qurumlarının nəzarətinin təmin olunacağından əminəm.

Yəni nəzarətin blokada ilə heç bir əlaqəsi yoxdur. Bu, dünyanın istənilən dövlətində tətbiq olunur. Ermənilər öz məqsədlərinə nail olmaq üçün bunu hər kəsə fərqli formada göstərməyə çalışırlar.

Azərbaycan isə bəzi ölkələrə blokada deyilən bir məsələnin olmadığını çatdırır".

**Nihat Müzəffər**

**Azərbaycan Prezidenti yanında Əfv Məsələləri Komissiyasının növbəti iclası keçirilib. Qeyd edək ki, bu, komissiyanın ikinci iclasıdır. Ötən iclasda 120 müraciətə baxılıb. Əfv Komissiyasının növbəti iclasının yanvarın 24-də keçirilməsi nəzərdə tutulub.**

*Əfv Məsələləri Komissiyasının üzvü, hüquqşünas Əlimməmməd Nuriyev "Şərq"ə açıqlamasında bildirib ki, hansı kateqoriyadan olan cinayəti törətməsinə baxmayaraq, hər kəsin müraciəti hərtərəfli araşdırılır. Onun sözlərinə görə, iki iclasda 200-dən artıq müraciətə baxılıb:* "Bilirsiz ki, Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə 2023-cü il "Heydər Əliyev İli" elan olunub. İlin başlanğıcından etibarən bu çərçivədə çoxsaylı tədbirlərin həyata keçirilməsi planlaşdırılıb. Ulu Öndərin anadan olmasının 100 illiyi ilə bağlı əfv sərəncamının verilməsi də gündəmdədir. Çünki Azərbaycanın Əfv İnstitutu Ümummilli Lider tərəfindən 1995-ci ildə qəbul olunmuş Konstitusiyaya daxil edilib. Bu baxımdan Ulu Öndərin yüzilliyi ilə bağlı, yeni anadan olmasının ildönümü ərəfəsində əfv sərəncamının imzalanması gözlənilir. Əfv Komissiyasının iclasları yanvarın 12-dən öz işinə başlayıb. İki iclasda iki yüzdən çox müraciətə baxılıb. İclaslar çox ətraflı və geniş müzakirələrlə müşayiət olunur. Bəzi hallarda iclaslar 3-4 saat çəkir. Bu da prosesin şəffaf və geniş müzakirədən keçməsinin göstəricisidir. Yeri gəlmişkən qeyd edim ki, Komissiyanın sədri Samir Nuriyev hərtərəfli şərait yaradılıb. Hər kəs istənilən müraciətlə bağlı öz fikrini açıq şəkildə bölüşür".



# Əfv sərəncamı 10 mayda gözlənilir

Əlimməmməd Nuriyev: "Ümid edirik ki, azadlığa çıxmış insanlar ölkəmizin inkişafına öz töhfəsini verəcək"

*Ə.Nuriyev vurğulayıb ki, indiyədək, yəni 1995-ci ildən bu yana Azərbaycanda 68 əfv sərəncamı olub:* "Sərəncamlar ümumilikdə 8 min 975 nəfərə şamil olunub ki, onların da 95 faizi cəzadan azad edilib. 32 əfv sərəncamı Ulu Öndər Heydər Əliyev tərəfindən, 36 isə Prezident İlham Əliyev tərəfindən imzalanıb. Vurğulamaq lazımdır ki, dövlət başçısının fəaliyyətində mərhəmət və humanizm təməl prinsiplərdəndir. 36 əfv sərəncamı da bunun bariz nümunəsidir. Sərəncamlar məhbusluqdan azad olmuş şəxslər üçün də yeni fürsət və imkanlar yaradır. Ümid edirik ki, azadlığa çıxmış insanlar ölkəmizin inkişafına öz töhfəsini verəcək".

**İsmayıl Qocayev**

## Tarix yaradanlar



# Heydər Əliyev müstəqil Azərbaycanın qurucusudur

**“Ümummilli Lider Heydər Əliyev Azərbaycan dövlətçilik tarixinin xüsusi bir mərhələsini yaratmış böyük, tarixi şəxsiyyətdir”.**

**Bu fikirləri ”Şərq”ə millət vəkili Hikmət Babaoğlu deyib. Onun sözlərinə görə, ölkəmizə rəhbərlik etdiyi dövr Azərbaycanın inkişaf epoxasıdır: ”Heydər Əliyev Azərbaycanda milli özünüdərkin inkişafında xüsusi xidmətlər göstərib. Dilimiz, mədəniyyətimiz və incəsənətimizin təbliğinə, inkişafına mühüm töhfələr verib.**

H.Əliyev ölkədə sənaye quruculuğu prosesini başladıb. Azərbaycanın aqrar ölkədən inkişaf etmiş, sənayeləşmiş bir dövlətə çevrilməsini təmin edib. Bakı şəhərinin milliləşməsi hələ sovet dövründə çox aktual idi: ”Məhz bu zamanda əmək qüvvəsi kimi rayonlarımızdan gənclərin Bakıya cəlb etməsinə şərait yaradıb. Bakının Azərbaycanlaşması üçün böyük işlər görüb. Ulu Öndər şübhəsiz ki, müstəqil Azərbaycanın qurucusu, memarıdır. Dövlətimizi vətəndaş qarşıdurmasından xilas edən, onu inkişaf yoluna çıxaran, xarici siyasət strategiyasını müəyyənləşdirən, Azərbaycanın milli konstitusiyasının qəbul olunması üçün böyük xidmətlər göstərən, ölkədə hüquqi dövlətin əsaslarını yaradan bir siyasətçidir.

Azərbaycanın beynəlxalq münasibətlər sistemində yeri və rolu müstəqilliyimizin ilk illərində məhz Ümummilli Liderimizin həyata keçirdiyi böyük iqtisadi layihələrlə müəyyənləşib. Sözügedən layihələr dövlətimizə həm iqtisadi, həm də siyasi müstəqillik qazandırıb. H.Əliyev həmçinin ölkədə vətəndaş müharibəsinin qarşısını alıb. Milli birliyin və həmrəyliyin simvoluna çevrilib. Onun cızdığı strateji yol Azərbaycanı 2020-ci il tarixi Zəfərinə qovuşdurub. Ərazi bütövlüyümüzün bərpası, güclü ordu, inkişaf edən ölkəmizdən danışa bilməyimizin kökündə Heydər Əliyevin müdrik siyasəti dayanır. 2023-cü ilin ”Heydər Əliyev ili” seçilməsi Azərbaycanın milli dövlətçilik yaddaşının öyrənilməsi, eləcə də tarixi zəfər kontekstində Heydər Əliyev məktəbinin əsasında gələcəyə yeni strateji baxışımızın müəyyənləşdirilməsi deməkdir”.

*Qeyd edək ki, Prezident İlham Əliyev Azərbaycan Respublikasında 2023-cü ilin ”Heydər Əliyev İli” elan edilməsi haqqında Sərəncam imzalayıb. 2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur.*

**Sücayət Mehti**

# Laçın yolundan silah, sursat və minalar daşınıb

## Bu məlumat aksiyadan aylar əvvəl Rusiyaya ötürülüb, amma seyrçi qalıblar

**”Rusiya tərəfi Azərbaycanın Ermənistanın Laçın yolu ilə mina daşımasına dair təqdim etdiyi məlumatı araşdırır”. Bu barədə Rusiya xarici işlər naziri Sergey Lavrov ötən ilin yekunlarına həsr olunmuş mətbuat konfransında Laçın yolundakı vəziyyətlə bağlı sualı cavablandırarkən bildirib.**

Lavrovun sözlərinə görə, Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 9 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatında ayrıca qeyd olunub ki, bu marşrut üzrə hərbi yüklər daşınmamalıdır. O, Rusiya hərbçilərinin Azərbaycan tərəfinin Ermənistanın bu dəhliz vasitəsilə mina daşıyıb üçtərəfli razılaşmaları pozaraq, Azərbaycan mövqelərinin yaxınlığındakı ərazilərini minalamasına dair təqdim etdikləri məlumatları araşdırdığını vurğulayıb. Qarşılıqlı ittihamların çox olduğuna diqqət çəkən Lavrov Rusiyanın sadə təkliflə çıxış etdiyinə diqqət çəkib: ”Sülhməramlı kontingent üçtərəfli bəyanata əsasən, hərəkətə nəzarət etmək səlahiyyətinə malik olduğu kimi, bütün nəqliyyat vasitələrini qadağan olunmuş, qeyri-humanitar və qeyri-mülki yüklərin olması ehtimalına qarşı yoxlamaq imkanına da malikdir”.

Lavrov Laçın yolundakı vəziyyətdən də danışıb: ”Azərbaycan xarici işlər naziri Ceyhun Bayramovla telefon danışığı aparmışam. Telefon danışığı zamanı Laçın yolundakı vəziyyəti müzakirə etdik. Rusiya, Azərbaycan və Ermənistan liderlərinin imzaladıqları 9 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata əsasən, Laçın yolu yük maşınları, nəqliyyat vasitələri və mülki sakinlərin hərəkəti üçün açıq olmalıdır. Hesab edirəm ki, məsələ yaxın vaxtlarda həll olunacaq”.



Bundan sonra Rusiya hərbi kontingenti “araşdırma” nəticəsində öz paxırını açarmı?”

**”Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu bildirib ki, Rusiya xarici işlər naziri Sergey Lavrov ”balans” naminə həm Azərbaycana, həm də Ermənistana daş atıb. Analitikə görə, Lavrovun ”yol yüklərin, vətəndaşların və nəqliyyat vasitələrinin keçidi üçün sərbəst olmalıdır” sözlərindən belə çıxır ki, guya, azərbaycanlıların aksiyası səbəbindən sərbəstlik indi yoxdur:** ”Lavrov azərbaycanlıların məlumatı əsasında ermənilərin bu yoldan minalar keçirməsiylə bağlı narazılığını bu şəkildə yekunlaşdırıb: ”İndi hərbçilərimiz bu məlumatı öyrənirlər”. Bu, konkret adam dolamaqdır. Sizə bu məlumat aksiyadan aylar əvvəl ötürülüb və yoldan silahın, sursatın və minaların keçirilməsinə seyrçi qalmısınız. İndi üstündən aylar keçəndən və aksiya başlayandan sonra Lavrov deyir ki, ”məsələni araşdıracaqlar”. Minalar keçirilib, müxtəlif istiqamətlərdə basdırılıb, müharibədən sonra minaların partlaması nəticəsində yüzlərlə vətəndaşımız həlak olub. Bu faciələrə şərait yaradan Rusiyanın bölgədəki hərbi kontingenti olub. Bundan sonra Rusiya hərbi kontingenti ”araşdırma” nəticəsində öz paxırını açarmı?”.

**Politoloq vurğulayıb ki, Lavrov Ermənistana da daş atıb: ”XİN rəhbəri deyib ki, İrəvan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının missiyasının Ermənistan-Azərbaycan sərhədinə göndərilməsi barədə sənədi yerinə yetirmək əvəzinə Avropa İttifaqının missiyasına üstünlük verib. Bu mövzuda fikirlərini belə yekunlaşdırıb:** ”Söhbət Azərbaycanla sərhəddən gedir. Yəqin ki, bu missiya Azərbaycanın razılığı olmadan sərhəddə yerləşdiriləcəksə, qeyri-məhsuldar olacaq. Sərhəddə etimadın möhkəmlənməməsi əlavə gərginliklər yarada bilər”. Məncə, Lavrov bu məsələdə haqlıdır. Avropa İttifaqının missiyası təmas xəttində monitorinqi uzatmaqla heç nəyə nail olmayacaq. Əksinə, Brüssel iki mənfi nəticə ilə üzləşəcək. Birincisi, rəsmi Bakı Brüsselin bundan sonrakı vasitəçiliyinə şübhəylə yanaşacaq. İkincisi, Azərbaycan-Ermənistan sərhədinin müəyyənləşməsi uzanacaq ki, bu da əslində Avropa İttifaqının maraqlarına cavab verməməlidir”.

**İsmayıl Qocayev**

# 20 Yanvar, 20 yanı var

## Xalqın dirənişi həm də Azərbaycanın müstəqilliyə aparan yolunda yeni mərhələnin başlanğıc nöqtəsi oldu

**Bir gün sonra Azərbaycan xalqı 20 Yanvar faciəsinin 33-cü ildönümünü qeyd edəcək. Şəhidlər Xiyabanında 20 Yanvar faciəsinin otuz üçüncü ildönümü ilə bağlı hazırlıq işlərinə başlanılıb. Ənənəvi olaraq xiyaban ərazisində müxtəlif rəngli qərənfillərdən xüsusi kompozisiyalar hazırlanır. Bu işlərə təcrübəli mütəxəssislər, landşaft-dizaynerləri cəlb olunub.**

BŞİH-nin qurumları tərəfindən Şəhidlər xiyabanında geniş təmizlik və abadlıq işləri görülür. Ağacların budaqları, bəzi kollar budanıb, qazon örtüyü yenilənib, yeni güllər və kollar əkilib. İşıq dirəkləri rənglənir, səkilər və bütün ərazi yuyulur, xiyabandakı hər iki məşəldə profilaktika aparılır. Hazırlıq işlərinin yanvarın 19-dək başa çatdırılması planlaşdırılır.

Qeyd etmək lazımdır ki, 33 il öncə müstəqil dövlətçilik tariximizin həm acılı, həm də şərəfli günləri yaşanıb. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə baş verənlər tək faciə yox, həm də xalqımızın tarixinin şərəfli səhifələrindən biri, ictimai-siyasi təfəkkürümüzdə yaranmış təbəddülatlar günü, milli azadlıq hərəkatımızın yüksəliş zirvəsi idi. Həmin gün Bakı qırmızı rəngə boyandı, açılan 20 yanvar səhəri şəhid oğul və qızlarımızın qanından rəng aldı, xalqımızın azadlıq harayı sovet tanklarının tırtılları altında boğuldu. Keçmiş SSRİ rəhbərliyinin Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq məqsədi daşıyan bu cinayətkar hərəkəti nəticəsində 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda görünməmiş vəhşiliklərə yol verildi. Günahsız insanlar, o cümlədən uşaqlar, qocalar, qadınlar qətlə yetirildi, yüzlərlə adam müxtəlif dərəcəli bədən xəsarəti aldı. Öz ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd Vətən övladları canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet rejiminin hərbi, siyasi və mənəvi təcavüzünə məruz qalmış Azərbaycan xalqı öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu göstərdi. Haqq-ədalətin müdafiəsi yolunda canlarından keçmiş vətən övladları o qanlı gündə xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar. Tariximizə həm də milli qürur günü kimi düşən 1990-cı ilin 20 Yanvarında Azərbaycan xalqı azad, suveren və müstəqil yaşamağa layiq olduğunu bütün dünyaya çatdırdı.

**Millət vəkili Cavid Osmanov ”Şərq”ə açıqlamasında deyib ki, 1990-cı ilin Qanlı Yanvar hadisəsi Azərbaycan xalqı üçün təkcə böyük faciə deyil, eyni zamanda ləyaqətini qorumaq üçün hər cür qurban verməyə hazır olan xalqın tarixində şərəfli bir səhifədir.** Deputat vurğulayıb ki, 20 Yanvar faciəsi həm ümumxalq faciəsi, həm də müstəqillik, istiqlal və hürriyyət uğrunda xalqımızın apardığı milli azadlıq hərəkatının zirvəsi kimi Azərbaycan tarixinə həkk olunub. Bir sözlə, 20 Yanvar faciəsi Azərbaycanın müstəqilliyə aparan yolunda yeni mərhələnin başlanğıc nöqtəsi oldu: ”Milli maraqlara zidd addımlar atan Azərbaycanın ozamankı rəhbərlərinin istefası tələbinin irəli sürülməsinə və o zaman ”Dağlıq Qarabağ” adlanan ərazinin Ermənistana birləşdirilməsinə xalqın qətiyyətlə qarşı çıxmasına görə Azərbaycanı cəzalandırmaq üçün Kreml Qanlı Yanvar qırğınını törətdi. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə birbaşa Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi Mixail Qorbaçovun əmri ilə SSRİ Müdafiə Nazirliyi, Dövlət Təhlükəsizlik Komitəsi və Daxili İşlər Nazirliyinin qoşun hissələri Bakıya və Azərbaycanın bir neçə rayonuna yeridilib. Dinc əhali ağır texnikadan və müxtəlif tipli silahlardan atəşə tutularaq kütləvi qətlə yetirilib. Sovet ordusunun xüsusi təyinatlı dəstələrinin və daxili qoşunların böyük bir kontingentinin Bakını zəbt etməsi xüsusi qəddarlıqla müşayiət edilib. Tətbiq edilmiş fövqəladə vəziyyət haqqında əhali xəbərdar edilməyib. 20 Yanvar faciəsinin törədilmə səbəblərindən bəlli olur ki, bu, siyasi maraqlar naminə Azərbaycan xalqına qarşı törədilmiş cinayətdir. 1990-cı il yanvarın ortalarında SSRİ müdafiə və daxili işlər nazirliklərinin, habelə başqa xüsusi təyinatlı hərbi birləşmələrin 66 min nəfərdən çox əsgər və zabiti Bakı şəhərinə gətirilərək, Qala və ”Nasoslu” aerodromlarında, ”Respublika” stadionunda, Salyan kazarmasında yerləşdirilmişdi. Azərbaycana göndərilən ordu hissələrinin tərkibinə Stavropoldan, Rostovdan, Krasnodardan səfərbər edilmiş erməni zabit və əsgərləri, hərbi məktəblərdə təhsil alan erməni kursantları da cəlb edilmişdi. Yanvarın 19-dan 20-nə keçən gecə hərbi qulluqçular 82 nəfəri amansızcasına qətlə yetirmiş, 20 nəfəri ölümcül yaralamışdılar. Kütləvi insan qırğını törədilərkən tanklardan və müxtəlif təyinatlı zirehli döyüş maşınlarından istifadə edilib, Xəzər Hərbi Donanmasına məxsus gəmilərdən şəhərə desant çıxarılmışdı. Fövqəladə vəziyyət elan edildikdən sonra isə yanvarın 20-də və sonrakı günlərdə Bakı şəhərində 21 nəfər öldürülmüşdü”.



Parlament üzvü bildirib ki, Qanlı Yanvar hadisələrinin coğrafiyası təkcə Bakı şəhəri ilə məhdudlaşmadı. Ölkənin digər rayonlarında yanvarın 25-də Neftçala, yanvarın 26-da isə Lənkəranda 8 nəfər qətlə yetirilmişdi. Ümumilikdə respublikada 147 nəfər öldürülüb, 744 nəfər yaralanıb, 841 nəfər qanunsuz həbs olunmuşdu: ”200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları, dövlət əmlakı və şəxsi əmlak məhv edilmişdi. 1990-cı il yanvarın 20-də Azərbaycan paytaxtına və respublikanın bir sıra rayonlarına sovet ordusu hissələrinin qanunsuz yeridilməsi, dinc əhalinin qırılması totalitar rejimin törətdiyi ən qanlı aktlardan biri, bütün bəşəriyyətə qarşı yönəldilmiş cinayət oldu. Şəhərin küçələri güllələnmiş və yaralanmış günahsız adamların - qocaların, qadınların, uşaqların qanına qərq olmuşdu. Hərbçilər təsadüfən küçəyə çıxanları, yaşayış evlərini, təcili yardım maşınlarını belə atəşə tuturdular. Belə bir vəziyyətdə Azərbaycanın ovaxtkı siyasi rəhbərliyi nəinki istefaya getməmiş, hətta belə bir məqamda susmağı daha üstün tutmuşdu. Qanlı Yanvar hadisələri Azərbaycan milli kimliyinin formalaşmasına həlledici təsir göstərib, dövlət müstəqilliyinin bərpa edilməsində dönüş nöqtəsi olub. Faciədən sonra milli azadlıq hərəkatı tam siyasi reallığa çevrilib. Dönməz xarakter alıb, xalq öz gələcəyini yalnız müstəqil Azərbaycanda görüb. 20 Yanvar hadisələri nəticəsində Azərbaycanda Sovet imperiyası özünün bütün mənəvi və sosial dayaqlarını itirdi. Baş vermiş hadisələr dünya azərbaycanlılarının təşkilatlanmasına səbəb oldu. Dünya azərbaycanlıları ilk dəfə olaraq milli faciəmizin tanıdılması naminə yaşadıqları müxtəlif ölkələrdə təşkilatlanmağa başladılar. 20 Yanvar faciəsinin yaratdığı ictimai-siyasi reallıq süqutu yaxınlaşan SSRİ-də və soyuq müharibənin bitməsi ərəfəsində beynəlxalq arenada formalaşan geosiyasi situasiya fonunda əvvəlcə Azərbaycan SSR-də, sonra müstəqil Azərbaycanda zəncirvarı tarixi proseslərə təkan verdi”.



**C.Osmanov qeyd edib ki, Azərbaycan xalqının böyük oğlu, dahi şəxsiyyət Heydər Əliyev Bakıda törədilmiş qanlı faciənin səhəri, yanvarın 21-də Sovet rejiminin qadağalarına rəğmən, həyatını təhlükə qarşısında qoyaraq Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gəldi. Qanlı faciənin təşkilatçılarını dünya ictimaiyyəti qarşısında ittiham etdi:** ”Cəsarətli bəyanat verərək əliyalın xalqın qırılmasını hüquqa, demokratiyaya, humanizmə zidd, Moskvanın və Respublika rəhbərlərinin günahı üzündən yol verilmiş kobud siyasi səhv kimi ifşa etdi. Təhlükələrdən çəkinməyərək Sovet hakimiyyətinin bu əməlinə etiraz edən Ümummilli Lider Heydər Əliyev Azərbaycan xalqının başına gətirilən qanlı faciənin ilk siyasi qiymətini verdi. Qanlı Yanvar hadisələrinə ilk hüquqi qiymət də məhz Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə verildi. Naxçıvan Muxtar Respublikasının Ali Məclisində 20 Yanvar faciəsinə ilk siyasi qiymət verən 21 noyabr 1990-cı il tarixli Qərar qəbul edilmişdi. Ölkə Prezidenti seçildikdən sonra Ulu Öndərin təşəbbüs və göstərişləri ilə 1994-cü ilin mart ayının 29-da Milli Məclis ”1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında” Qərar qəbul etdi. Ümummilli Lider Heydər Əliyev dövrün mürəkkəbliyinə rəğmən, 20 Yanvar faciəsinin başvermə səbəbləri və günahkarların araşdırılması ilə də məşğul oldu və bunun nəticəsində həqiqətlər üzə çıxdı. ”20 Yanvar Şəhidi” fəxri adı da məhz 1998-ci ildə Ulu Öndər Heydər Əliyevin Fərmanı ilə təsis edilib. Ulu Öndər Heydər Əliyevin yolunu uğurla davam etdirən Prezident cənab İlham Əliyev də şəhidlərin xatirəsinin uca tutulmasına, şəhid ailələrinin sosial məsələlərinin həll olunmasına xüsusi diqqət ayırır. Ölkə başçısının təşəbbüsləri sayəsində 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslər və şəhid ailələri üçün effektiv sosial müdafiə sistemi formalaşıb. 1990-cı ilin yanvarında şəhid olmuş oğul və qızlarımızın xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, onların ailələrinin, övladlarının sosial müdafiəsinin gücləndirilməsi üçün Prezident cənab İlham Əliyev tərəfindən mühüm addımlar atılıb. Dövlət Başçısının 19 yanvar 2006-cı il tarixli ”20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında” Fərmanına əsasən, şəhid ailələrinə dövlət qayğısını artırmaq məqsədilə təqaüd verilir. Bütün bunlarla yanaşı, Şəhidlər Xiyabanında təmir və yenidənqurma işləri ilə yanaşı, Bakının Yasamal rayonundakı ”20 Yanvar” dairəsində, Həsən bəy Zərdabi və Müzəffər Həsənov küçələrinin kəsişməsində Qanlı Yanvar şəhidlərinin xatirəsinə memorial abidə kompleksi ucaldılıb. Azərbaycan xalqı 1990-cı ilin yanvarında Azərbaycanın azadlığı uğrunda zirehli texnikanın qarşısına əliyalın çıxmış, Azərbaycanın müstəqilliyi uğrunda canlarından keçmiş oğul və qızlarını unutmur. Hər il yanvarın 20 saat 12:00-da Azərbaycanın bütün ərazisində 20 Yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad olunur. Gəmilərdən, avtomobillərdən və qatarlardan SOS siqnalları verilir, hüzn əlaməti olaraq dövlət bayraqları endirilir. Ölkəmizin müstəqilliyi və azadlığı uğrunda canından keçmiş şəhidlərimizin müqəddəs xatirələri xalqımızın qəlbində əbədi yaşayacaq”.

**İsmayıl Qocayev**

# Helikopter qəzası Ukraynanı sarsıtdı

## Müharibədə hansı tərəfin qalib olması mart ayında aydın olacaq



**Yanvarın 18-də Ukraynanın Kiyev vilayətinin Brovarı şəhərində helikopter qəzaya uğrayıb. Göyərtəsində 9 nəfərin olduğu helikopterin uşaq bağçası və yaşayış binasının üzərinə düşməsi nəticəsində ümumilikdə 19 nəfər ölüb, 29 nəfər yaralanıb.**

Nəticədə Ukraynanın daxili işlər naziri Denis Monastırski, daxili işlər nazirinin birinci müavini Yevgeni Yenin və Daxili İşlər Nazirliyinin dövlət katibi Yuri Lubkoviç həlak olublar. Ukrayna Daxili İşlər Nazirliyi Kiyev vilayətində baş verən helikopter qəzasının səbəbləri ilə bağlı açıqlama yayıb. Qəzanın başvermə səbəbləri arasında helikopterdə texniki nasazlıq, təhlükəsizlik qaydalarının pozulması və diversiya ehtimalları mümkün sayılır.

**"Qurbanlar Ukraynanın əsl vətənpərvərləridir"**

Ukrayna Prezidenti Volodimir Zelenski helikopter qəzasının səbəblərinin araşdırılmasını tapşırıb. O, faciə qurbanlarının sayının dəqiqləşdirildiyini vurğulayıb: "Kiyev vilayətinin Brovarı rayonunda dəhşətli faciə baş verib. Faciə qurbanlarının xatirəsini əziz tutur, yaxınlarına başsağlığı verirəm. Qurbanlar Ukraynanın əsl vətənpərvərləridir". Zelenski hadisə ilə bağlı Ukrayna Təhlükəsizlik Xidməti, Milli Polis və başqa səlahiyyətli orqanlara hadisənin araşdırılması ilə bağlı göstəriş verdiyini bildirib.



**Helikopter qəzasında ölən nazir hara gedirmiş?**

Ukrayna Prezident Ofisi rəhbərinin müavini Kirill Timoşenko məlumat verib ki, daxili işlər naziri Denis Monastırski helikopterlə döyüş əməliyyatları aparılan əraziyə uçurmuş: "Uçuşun məqsədi işlərlə bağlı idi. Daxili işlər naziri hərbi əməliyyatların aparıldığı ən qaynar nöqtəyə uçurdu".

**Şarl Mişel helikopter qəzasına görə Ukraynaya başsağlığı verib**

Avropa İttifaqı (Aİ) Şurasının prezidenti Şarl Mişel Kiyevdə baş vermiş helikopter qəzası ilə bağlı Ukraynaya başsağlığı verib. Mişel bildirib ki, həlak olan daxili işlər naziri Denis Monastırski Aİ-nin dostu idi: "Biz Ukraynanın kədərini bölüşürük. Həlak olanların ailələrinə dərin hüznlə başsağlığı veririk".

**"Ukraynaya hər cür dəstəyi verməyə hazırıq"**

Böyük Britaniyanın xarici işlər naziri Ceyms Kleverli də Ukraynanın daxili işlər naziri Denis Monastırski də daxil olmaqla 19 nəfərin həlak olduğu təyyarə qəzası ilə bağlı Ukrayna xalqına başsağlığı verib: "Ukraynanın daxili işlər naziri Denis Monastırski, onun komandasının üzvləri və mülki şəxslərin həyatına son qoyan helikopterin bu səhər qəzaya uğraması faciəvi xəbərdir. Denis Böyük Britaniyanın əsl dostu idi".

**"Gələn ay Ukraynanın əks-hücumları gözlənilir"**

**Politoloq Məhəmməd Əsədullazadə "Şərq"ə deyib ki, müharibə daha da ciddi mərhələyə keçib, Ukrayna qoşunları şərq cəbhəsində çətinliklə üzləşir. Analitikə görə, Ukraynanın hücuma keçməməsi əsasən Qərbdən vəd edilən silahların vaxtında çatdırılmamasıdır:** "Fevral və mart ayı həlledici mərhələ olacaq. ABŞ və Avropa ölkələri uzaq vuran artilleriya və raket sistemlərini, Patriotları vaxtında təhvil verməsə, Rusiyanın irəliləyişi qaçılmaz olacaq. Baxmut və Soledarda döyüşlər göstərdi ki, Ukraynanın müdafiədə olması onu çətin vəziyyətə salır. ABŞ prosesdə təşəbbüsü ələ almasa, Rusiya müharibənin birilliyində irəliləyişlərə nail olacaq. Rusiya Prezidenti Vladimir Putin qəti şəkildə müharibədən geri çəkilməyəcək. Gələn ay Ukraynanın əks-hücumları gözlənilir. Amma Rusiya da boş oturmur və əks-hücumların qarşısını almaq üçün dayanmadan hücumlar təşkil edir. Ukraynanın şərq cəbhəsində ağır döyüşlərdə hansı tərəfin qalib olması isə mart ayında aydın olacaq. Rusiya Ukraynanı bir dövlət kimi yox etməyə çalışır".

**İsmayıl Qocayev**

# Nemətin deyil, cəmiyyətin suçudur

## Pənahlının başıüstə dayanması siyasi gündəm olmamalıdır



**Azərbaycan Milli Dövlətçilik Partiyasının sədri, Milli Azadlıq Hərəkatının liderlərindən olan Nemət Pənahlının "Müsavat TV"nin canlı efirindən sonra yoqa ilə məşğul olması ictimaiyyətdə birmənalı qarşılanmayıb. 61 yaşlı siyasətçi bu davranışına görə tənqidlərə məruz qalıb.** Ancaq Nemət Pənahlıya haqq qazandıranlar, hərəkətində qeyri-adi heç nə olmadığını deyənlər də olub. Məlumat üçün deyək ki, Nemət Pənahlı aparıcı Sevinc Telmanqızının xahişi ilə stulda başıüstə dayanıb. Deyib ki, yarım saat belə dayana bilər: "Yarım saat da, 1 saat da bu cür dayana bilərəm, baxır insanın hazırlıq səviyyəsinə. Hazırda 1 saat dayana bilərəm". Təxminən 10 dəqiqədən sonra aparıcı siyasətçidən bu hərəkətini dayandırmasını istəyib. Tənqidlərdən sonra Nemət Pənahlı baş verənlərə və barəsində söylənənlərə aydınlıq gətirib. Siyasətçi bildirib ki, hər kəs hadisələrə öz ağlı, düşüncəsi səviyyəsində münasibət bildirir. İnsanlar istədikləri münasibəti bildirməkdə sərbəstdirlər. Bunda heç bir problem yoxdur: "İdman mənim həyat tərzimdir. Sevinc xanım məndən təkidlə xahiş etdi. Mən bu hərəkəti ona öyrədə biləcəyimi dedim. Düşünmürəm ki, nəsə qeyri-adi hərəkət etmişəm. Heç bir idman növü ilə professional şəkildə məşğul olmuram. Elə bir iş görməmişəm ki, cəmiyyət içərisinə çıxanda xəcalət çəkim. 16 yaşından siyasi mübarizə meydanına çıxmış adamam. 26 yaşında Meydan hərəkatına rəhbərlik etmişəm. Sovet imperiyasının təhlükəsizlik orqanları çox çalışıb ki, məni rüsvay edən, gözdən, hörmətdən salan nəsə tapsın. Bu 35 ildə şəxsiyyətimlə, ailəmlə, nəslimlə bağlı heç bir pis şey aşkarlanmayıb. Sonuncu dəfə həbsdə 9 kvadratmetrlik kamerada olmuşam. Orada məni sağlam saxlayan elə yoqa oldu. Heç kəs mühakimə edə bilməz ki, siyasətçi, dövlət adamı, dindar, ədəbiyyat xadimi niyə idmanla məşğul olur? Əslində bu, istənilən siyasətçinin məşğul olacağı idman növüdür. Amma Nemətə qara yaxmaq istəyənlər dinc durmur. Əllərinə girəvə düşüb".

**Tənqidlərdən sonra Nemət Pənahlının qızı Xatirə Əfşar da səslənən fikirlərə reaksiya verib. O, fikirlərini belə bölüşüb:** "Çoxunuzun təhqirlərini oxudum. Var olun. Təhqir nədir ki?! Mən gözləyirdim ki, evimizin qabağına hücum edib, bizi daşqalaq edəsiniz. Axı çox böyük bir hadisə baş verib. Nemət Pənahlı yetim haqqı yeyib. Xalqin milli və mənəvi kimliyi ilə oynayıb. Axı niyə etməyəsiniz? Yanıltdınız məni. Əfsus". Daha sonra sözlərinə belə davam edib: "Nemət Pənahlının bütün Azərbaycana örnək olacaq altı övladı var. Hansı biri ilə onu ələ salıb təhqir edə bilərsiniz? Bir siyasətçinin siyasəti ilə sevilməməsi başadüşüləndir. Sevəni və sevməyəni olacaq. Ancaq dişinizi qıcayıb onu aşağılayacağınız, ya da alçaldacağınız şeyi necə də böyük həsrətlə gözləyirmişsiniz. Çox sadə və bəsit videonu ölkədə gündəm edə bilirsiniz. Bəlkə də elə bilirsiniz ki, biz ailəcə matəm elan etmişik ki, niyə atamızın bu videosu paylaşılıb. Əsla. Şəxsən öz adıma deyirəm ki, mən ömrüm boyu atamın əxlaqı ilə fəxr etmişəm. Onun nə özünün, nə də ailəsinin əxlaqına toz belə qondurmaq mümkün deyil. Buna bu gün bir daha əmin oldum. Üzülmədim, üzülmürəm".

**"Çoxluq dedi-qodu, qeybət və baş qatmağa mövzu axtarır"**



**AĞ Partiya sədri Tural Abbaslı "Demokrat.az"a açıqlamasında bildirib ki, bu, Nemət Pənahlının şəxsi işidir:** "Mən insanın siyasi fəaliyyəti ilə bağlı fikir bildirə bilərəm. Yoqa hərəkəti edib və bu, onun biləcəyi işdir. Düşünürəm ki, bununla bağlı partiyaların reaksiya verməsi doğru olmaz. Özü yaşlı-başlı insandır, kifayət qədər siyasi təcrübəsi olan bir şəxsdir. Nemət Pənahlı 1980-ci illərin sonunda Azərbaycanda Azadlıq Hərəkatında adı hallanan populyar siyasi xadimlərdən biri olub. Azərbaycan tarixində bu və ya digər formada öz adını yazmış şəxsdir. Hər halda özü nə edəcəyini bilir. İqtidar nümayəndəsi deyil ki, biz ondan vəzifələrinin icrasını tələb edək?! Bu, siyasi xadimdir, istər fəaliyyət göstərər, istər də özünü müxalif düşərgənin nümayəndəsi hesab edər. Ona uzun ömür, cansağlığı və fəaliyyətində uğurlar arzulayıram".

**Millət vəkili Fazil Mustafa isə bu cür söz-söhbətlərin gündəm olmasından danışıb:** "Siyasətlə məşğul olan insanların gündəmi Qarabağda aksiyaların hansı formada yekunlaşacağıdır. Mənim başqa gündəmim yoxdur. Ölkədə daha çox müzakirə edilən mövzular diqqətimi cəlb etmir. Qeyd edilən məsələ mənalı mövzular deyil. Hər kəs öz davranışına görə məsuliyyət daşıyır. Bu məsələlər cəmiyyətin gündəmindədirsə, məşğul olsunlar, mane ola bilmərik. İnsanlar kitab oxumayanda, dünyagörüşləri məhdud olanda, televiziyada düşüncə tələb etməyən verilişlərə, seriallara baxanda təbii ki, səthi mövzulara daha çox maraq göstərəcəklər. Ölkədə hansısa kitab və ya düşüncə mühiti yoxdur axı. Çoxluq dedi-qodu, qeybət və baş qatmağa mövzu axtarır. Çoxluğa qarşı mübarizə aparmaq, düzgün istiqamətə yönəltmək çox çətindir. Azərbaycanda baş düşünmək üçün nəzərdə tutulmayıb, ya yarılmalıdır, ya da boş məşğuliyyətlərə sərf edilməlidir. Başın düşünmək üçün nəzərdə tutulduğunu cəmiyyətimizə qəbul etdirməliyik. Bu isə asan proses deyil".

**İsmayıl**

## Yurda qayıdış



# Qərbi Azərbaycanda türk əhalinin sayı dəqiq müəyyənləşdirilməlidir

## Ən önəmlisi isə tarixi-coğrafi məsələləri, soydaşlarımızın hansı səbəblərdən öz yurdlarından didərgin salınması faktları üzərində dayanmalıyıq

**Qərbi Azərbaycan İcması indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların öz yurdlarına geri dönüşünü əks etdirən "Qayıdış konsepsiyası" üzərində işini davam etdirir. Ötən gün Azərbaycan Milli Elmlər Akademiyasında və ölkənin digər elmi qurumlarında Qərbi Azərbaycanla bağlı aparılan elmi tədqiqatların daha sistemli və inteqrativ şəkildə təşkili məqsədilə Əlaqələndirmə Şurası yaradılıb.**

Eyni zamanda AMEA-da aparılacaq elmi-tədqiqat işlərinin əhatəli planı, beynəlxalq səviyyəli elmi konfransların planı təsdiqlənib. Xatırladaq ki, bundan öncə Qərbi Azərbaycan İcmasının rəhbər heyəti müxtəlif strukturlarda təmsil olunan, Qərbi Azərbaycan üzrə bir qrup tədqiqatçı alimlə görüşmüşdü. Görüşdə qarşıda duran vəzifələr, Qərbi Azərbaycan həqiqətlərinin sistemli şəkildə tədqiqi, nəşri və təbliği məsələləri müzakirə olunub. Tədbirdə Qərbi Azərbaycan İcması tərkibində Elm Komissiyasının yaradılması, onun müxtəlif tədqiqat sahələri üzrə bölmələrinin təşkil edilməsi və Komissiyanın işinə bu elm sahələri üzrə alimlərin cəlb edilməsi də qərara alınmışdı.

**AMEA-nın aparıcı elmi işçisi, fəlsəfə doktoru, Bütöv Azərbaycan Ocaqlarının sədr müavini Faiq Ələkbərli "Şərq"ə bildirib ki, Qərbi azərbaycanlıların öz doğma yurdlarına dönüşü və bununla bağlı xüsusi Qayıdış konsepsiyasının hazırlanması mühüm məsələdir. Alim deyib ki, sözügedən konsepsiya əslində Bütöv Azərbaycan məsələsinin önəmli tərkib hissəsidir:** "Azərbaycan türklərinin indiki Ermənistan ərazisi sayılan tarixi torpaqlarına qayıdışı hüquqi cəhətdən ciddi şəkildə işlənməlidir. Qərbi Azərbaycanda türk əhalinin sayı dəqiq müəyyənləşdirilməli və indiki sayın nisbətinin müqayisəsi aparılmalıdır. Ən önəmlisi isə tarixi-coğrafi məsələləri, soydaşlarımızın hansı səbəblərdən öz yurdlarından didərgin salınması faktları üzərində dayanmalıyıq. Sadəcə hüquqi deyil, demoqrafik və siyasi-iqtisadi cəhətdən də ayrı-ayrılıqda iş görülməlidir. Hər kiçik detal nəzərə alınmalıdır. Əgər yenidən öz dədə-baba yurdlarımıza qayıtmaq istəyiriksə, dünya ictimaiyyəti bu məsələdə nə qədər israrlı və qətiyyətli olduğumuzu görməlidir. Prosesdə davamlılıq əsasdır ki, beynəlxalq aləm öz torpaqlarımıza qayıtmaq qərarında ciddi olduğumuzu anlasın. Bu, çox önəmli məqamdır".

**F.Ələkbərli vurğulayıb ki, boşluqlar dərhal doldurulmalıdır:** "BMT ilə sıx işləmək lazımdır. Qayıdış konsepsiyasına uyğun olaraq hər sahədə ciddi addımlar atılmalıdır. Ümid edirəm, proses uzun çəkməyəcək. İnsanlarımızın Zəngəzura, Göyçəyə qayıdışı ciddi şəkildə və daim gündəmdə saxlanılmalıdır. Azərbaycana dost olan dövlətləri də prosesə cəlb etməliyik. AMEA-nın işin içində yer alması sevindiricidir. Məsələyə elmi tədqiqatlarla yanaşılması olduqca vacibdir. Təbii ki, tarixi-elmi əsaslandırmamız boş söz yığınlarından ibarət olmamalı, ciddi tədqiqatlara söykənməlidir".

**İsmayıl Qocayev**



**Xarici işlər naziri Ceyhun Bayramov rusiyalı həmkarı Sergey Lavrovla telefonla danışıb. Danışıq zamanı ikitərəfli və regional məsələlər üzrə də fikir mübadiləsi aparılıb. Tərəflər Laçın yolundakı vəziyyəti də müzakirə edib.**

# Ceyhun Bayramov Lavrovla açıq danışıb

## Azərbaycanın sərvətlərinin talanmasına son qoyulmalıdır

*Sosial Tədqiqatlar Mərkəzinin baş məsləhətçisi, politoloq Tural İsmayılovun "Şərq"ə açıqlamasına görə, telefon danışığı zamanı Azərbaycan-Ermənistan arasındakı sərhədlərin delimitasiyası, yekun sülh müqaviləsi, həmçinin, Rusiya, Azərbaycan və Ermənistan liderləri arasında razılaşmalar əsasında Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasının əsas tərəfləri də danışılıb:* "Eyni zamanda Azərbaycan və Rusiya arasında mövcud ikitərəfli əməkdaşlıq gündəliyində duran aktual məsələlər, o cümlədən Laçın yolu ətrafında cari vəziyyət müzakirə mövzusu olub. Son dövrlər Ermənistanda artan anti-Rusiya əhval-ruhiyyəsi və ritorikası da əsas müzakirə predmeti olub. Bu məsələ Rusiyanın siyasi rəhbərliyi üçün kifayət qədər narahatedici məqamdır. Siyasi elitanın açıqlamaları da iki ölkə arasındakı münasibətlərdə ciddi soyuqluq olduğunu göstərir. 10 noyabr bəyanatının üçüncü tərəfi olan Rusiyanın sülhməramlıları bölgədə olduğundan Xankəndi- Laçın yolundakı aksiyanın Azərbaycan və Rusiya rəsmiləri ilə müzakirə edilməsi labüddür. Nazir Ceyhun Bayramov da haqlı olaraq Rusiya sülhməramlı kontingentinin yerləşdiyi Azərbaycan ərazilərində qeyri-qanuni iqtisadi fəaliyyət, o cümlədən təbii sərvətlərin istismarına və Laçın yolundan sui-istifadəyə qarşı etirazların Azərbaycan vətəndaşlarının legitim hüququ olduğunu vurğulayıb. Bu xüsusda, etirazçıların haqlı tələblərinin yerinə yetirilməsinin zəruri olduğunu diqqətə çatdırıb. Çünki Azərbaycanın ən önəmli tələblərindən biri ermənilər tərəfindən Azərbaycana məxsus qızıl mədənlərinin qanunsuz istismarının qarşısının alınması və monitorinq missiyasının oraya buraxılması məsələsidir. Rus sülhməramlıları görüntüdə buna razılıq versələr də, Vardanyan və ətrafındakı separatçıları prosesi sabotaj etdilər. Buna etiraz məqsədilə ekoaktivistlərin keçirdiyi dinc aksiyanı isə dünyaya, guya, Azərbaycan tərəfindən Laçın yolunun bağlanması, Azərbaycan ərazilərində yaşayan erməni sakinlərin blokadaya alınması, humanitar böhran vəziyyətinin yaranması kimi təqdim etdilər.

**Nazir haqlı olaraq Laçın yolundan sui-istifadəyə qarşı etirazların Azərbaycan vətəndaşlarının legitim hüququ olduğunu vurğulayıb**

Halbuki XİN başçısının da qeyd etdiyi kimi, Laçın yolundan hər gün onlarla nəqliyyat vasitəsinin, sülhməramlı kontingentin avtomobillərinin, Beynəlxalq Qızıl Xaç Komitəsinin, erməni təcili tibbi yardım maşınlarının keçməsi Ermənistan tərəfinin əsassız iddialarını təkzib edir".

Rusiyanın bu aksiyaya münasibətinin Azərbaycan üçün qəbul edilmədiyini vurğulayan T.İsmayılov deyib ki, bölgədə sülhməramlı missiyasını üzərinə götürən Kreml işğaldan azad olunan Azərbaycan ərazilərindəki faydalı qazıntı yataqlarının ermənilər tərəfindən qanunsuz istismarına göz yummaq əvəzinə qarşı çıxmalıdır. Əks halda onların mövqesizliyi Rusiyanın sülhməramlı olub-olmadığına dair şübhələri artıracaq.

**Şəymən**

## Xankəndiyə yol yaxındır



**Laçın-Xankəndi yolunda ekofəalların dinc aksiyası artıq 40-cı gününə yaxınlaşır. Aksiyanın məramı, məqsədi bəllidir; yurdumuzun təbii sərvətlərinin separatçılar tərəfindən talanmasına son qoyulması, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdikləri ərazilərdə faydalı qazıntı yataqları ilə bağlı mütəxəssislərin monitorinq aparmasına şərait yaradılması. Nəzərə alsaq ki, aksiya barədə geniş məlumatların verilməsi ilə beynəlxalq aləm də bundan xəbərdardır, aksiyanın məqsədinə çatdığını söyləmək olar.**

# "Biz erməni əhalisini öz tərəfimizə çəkməliyik"

## Kərim Kərimli: "Mən 100 faiz əminəm ki, indi də Azərbaycan dövlətinin vətəndaşı olaraq sakit, rahat yaşamaq istəyən, buna can atan ermənilər var"

Bu aksiyanın mənəvi tərəfi isə daha böyükdür, bizcə. 40 gündür ki, Azərbaycan insanı üzü Xankəndiyə tərəf dayanıb. Zatən bu vaxta qədər də üzümüz daim Qarabağa, Xankəndiyə idi, amma hazırkı aksiyada üzümüzü, səmtimizi həm də fiziki olaraq, canlı halda Xankəndiyə tutmuşuq və belə görünür ki, Xankəndiyə ayaq basmamış yoldan dönəsi də deyilik. İndiyədək Xankəndi doğumlu insanlarımızla çox söhbətlər etmişik. Bu şəhər haqqında onların acı-şirin xatirələrini dinləmişik. Budəfəki həmsöhbətimiz isə əslən Xankəndidən deyil, amma bu şəhərə bağlı və bu şəhəri çox sevən biridir. Bizim daim böyük şuşalı adlandırdığımız, hər dəfə də onun haqqında mübaliğəsiz Şuşanı ovcunun içi kimi bilən tanıtımı etdiyimiz yazıçı-publisist, şair və jurnalist, şuşalı Kərim Kərimlidir. Kərim bəyə ilk sualım, aksiya barədə olmalıydı. Ancaq fikrimi dəyişdim. Laçın-Xankəndi yolundakı aksiya həm də məhz Xankəndiyə aparan yol olduğundan Kərim bəydən bu şəhərlə bağlı xatirələrini bölüşməsini istədim. Bəli, Qarabağ xanlığının istirahət məskəni olaraq salınan şəhərin adının "Stepanakert"ə necə döndüyünü bilməyən yoxdur. Onu deyim ki, "Stepanakert" adı milli düşüncəli insanlarda həmişə narazılıq yaradıb. Sovet hakimiyyətində buna etirazlar qəbuledilməz sayılırdı və insanların narazılığı da ürəklərində qubar olaraq qalırdı ki, Xanın kəndinə Qarabağda, cümlə-Azərbaycanda türklərə - azərbaycanlılar qarşı soyqırımlara rəhbərlik etmiş "kommuna lideri"nin adı niyə verilməlidir?!. Ermənilər Xankəndini Stepanakert etsələr də, nə bu şəhərin milli ruhunu qopara bildilər, nə də yerli xalqın - Azərbaycan türklərinin Xankəndiyə sevgiləri azaldı. Bunu Kərim bəy də təsdiq etdi.

**- Kərim bəy, inkar edə bilmərik ki, sovet vaxtı Stepanakert adlandırılmış Xankəndi həm də ozamankı Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati mərkəzi, paytaxtı idi. Və həm də ermənilər şəhəri "ermənilәşdirmişdilər". Siz necə, Xankəndidə olmuşdunuzmu, gedirdinizmi o şəhərə, yaddaşınızda necə qalıb? Xoşunuz gəlirdi o şəhərdən?**

- Uşaq vaxtı valideynlərimlə getmişəm, yuxarı siniflərdə təhsil alanda da dəfələrlə getmişəm. Sonra ali məktəbi bitirdim, Şuşada işləyirdim, yenə Xankəndiyə gedirdim, Qarabağın işğalından əvvəl, sonuncu dəfə səhv etmirəmsə, 1991-ci il avqustun 22-si, ya da 24-ü olmuşdum Xankəndidə. İşğaldan sonra bir də 1998-ci ilin avqustunda getmişəm. Beynəlxalq müstəvidə... Şəhəri çox yaxşı tanıyırdım. Xankəndi Şuşaya nisbətən böyük şəhərdi. Şuşa enişli-yoxuşludu, küçələrin hamısını gəzmək olur. Amma Xankəndidə küçələr də çoxdu, bütün şəhəri gəzmək xeyli vaxt aparır. Şəhəri yaxşı gəzmişdim. Soruşursunuz, xoşunuz gəlirdi Xankəndidən? Nəyə görə bilmirəm, Xankəndini çox sevmişəm. "Nəyə görə bilmirəm", cümləsi içimdən gəldi, təbii ki, sevginin səbəbi məlumdu, Vətənin hər bir nöqtəsini insan sevir, bu, öz yerində. Amma Xankəndini sevməyimin bir səbəbi də yəqin ki, mənim üçün böyük şəhər anlayışının məhz Xankəndi ilə formalaşmasına bağlıdır. Mən böyük şəhərlər necə olur, bunu Xankəndinin timsalında görmüşəm və sevmişəm. Məsələn, indi mənim üçün ən gözəl şəhərlərdən biri Mingəçevirdi. Şəhərin mərkəzindən çay keçir, şəhəri iki hissəyə ayırır, bu, şəhərə əlavə gözəllik qatır. Və şəhərin gözəl görünməsinin səbəblərindən biridir. Xankəndi də böyük və gözəl şəhər idi. Geniş küçələri vardı, Pedaqoji İnstitut, idarələr, parklar, stadion... Sizə deyim ki, Xankəndi ötən əsrin 60-cı illərindən böyüməyə başlamışdı. Xankəndidə bolluq olub həmişə. Qarabağın digər bölgələrində kərə yağı tapılmayanda adamlar Xankəndiyə bazarlığa gəlirdi və istədiklərini alırdılar. Həm də digər bölgələrə nisbətən Xankəndidə ucuzluq idi. Bilmirəm, bunu bilə-bilə edirdilər ki, narazılıq olmasın, yoxsa ərzaq, digər mallar həddindən çox gətirilirdi deyə beləydi. Amma, məsələn, Ağdamda 1 rubla satılan siqaret Xankəndidə 49 qəpiyə idi *(yəqin düşünürlərmiş ki, ağdamlılar varlıdı, 1 manata da alarlar siqaret - M.R.)* Məsələn, biz Şuşada "Şuşa" qəzetini nəşr etmək üçün klişeni - mətbuat işçiləri bilir bu nədi, Xankəndiyə gəlib alırdıq. Şuşada klişe yox idi. Xankəndidə "Qarabağ" stadionunda futbola baxmışam. Azərbaycan cavanları, xüsusən də sevgililər görüşmək üçün Xankəndiyə gedirdilər. Çünki bizim tərəflərdə belə məsələlər qəbul olunmurdu, pis baxılırdı. Demirəm, ucdantutma hamının görüş yeri idi, amma gedənlər olurdu. Xankəndidə sərbəst gəzib-dolaşırdılar. Şuşadan Xankəndiyə mikroavtobus işləyirdi. Yaxşı restoranları vardı. Yəni böyük şəhəri təmsil edəcək hər şey vardı. Təkcə sevənlər yox, elə hamımız orda sərbəst dolaşırdıq. Bizdə o hiss yox idi ki, kimsə yolumuzu kəsə bilər, kimsə bizə sataşar. Ağlımıza da gəlimirdi qorxaq, çəkinək. Əksinə, Xankəndinin özümüzün şəhəri olması hissiyatımız vardı. Həm mənəvi, həm də maddi baxımdan Xankəndini öz şəhərimiz hesab edirdik. Açıq deyim, erməni dostlarımız, tanışlarımız da vardı. Hansısa işimizi həll etmək üçün idarələrə sərbəst daxil olurduq. Sabir adına küçədə, Kərpiçnıy məhəlləsində, Kərkicahan qəsəbəsində bütünlüklə azərbaycanlılar yaşayırdı. Yəni şəhər mənə doğmadır.

> ***"Qarabağ münaqişəsi həll edilməmiş zamanlarda ermənilər arasında Xankəndini tərk edib getmək istəyənlər çox idi. Onlara icazə verilmirdi"***

**- Kərim bəy, aksiyada iştirak etməmisiniz deyəsən...**

- Yox, iştirak etməmişəm. Bir neçə dəfə müraciət etdim, bildirdilər ki, aksiyaya konkret bu müstəvidə - ekologiya sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının nümayəndələri cəlb edilir. Bir neçə dəfə dostların köməyi ilə getmək istədim, hər dəfə nəsə problem yarandı, gedə bilmədim. İştirak etmək istədiyimi bildirəndə, soruşurlar ki, neçə yaşın var, qışdı, soyuqdu, neçə gün dözə bilərsən? Gülməyim gəlir, sabah mən Şuşada yaşayanda, soruşacaqlar ki, necə qala bilirsən orda, necə dözürsən şaxtalı havaya?! Qar, şaxta görməmişik məgər?!.

**- Aksiya barədə fikriniz nədi?**

- Hesab edirəm ki, bu aksiya Qarabağ uğrunda mübarizəmizin tərkib hissəsi və növbəti mərhələsidir. Üstünlüyü odur ki, bu, dinc aksiyadır. Heç kimə güllə atmırıq, heç kimi incitmirik. Əsir, girov götürmürük. Sadəcə, toplaşıb aksiya keçiririk, tələb edirik ki, Azərbaycanın təbii sərvətlərinin daşınmasına, talanmasına son qoyulsun. Hansı dövlət belə bir hala sakit qalar?! Tələb nədir - ekspertlər gedib yataqlara baxsın, monitorinq aparsın. Burada qeyri-qanuni nə var? Heç nə. Ermənipərəst dövlətlər, səbəbdən çox nəticəni qabartmağa çalışır. Guya ki, Xankəndidəki ermənilər blokadadı, ərzaq tapılmır, uşaq yeməyi tapılmır... Amma deyilmir ki, niyə aksiya keçirilir. Düzdür, aksiyanın gedişatında ilk zamanlar bizim tərəfdən bəzi nöqsanlar oldu. Bu da ona görə baş verdi ki, bəziləri özlərinin reklamına "işləmək" istədi, ümumi maraqları nəzərə almadılar. Əslində ermənilərə olmayan nifrət barədə fikir formalaşdırdılar. Bəziləri özlərini daha çox fədakar göstərməyə çalışır. Belə detallara fikir vermək lazımdır. Baxılmalıdır ki, kimin aksiyada iştirakı ümumi mənafeyimizə uyğundur, kimin yox. Hazırda Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazilərdə, Xankəndi ətrafında xammal ehtiyatları var və separatçılar necə ki, illərlə onları talan edib, yenə də davam etmək istəyir. Arkadi Manuçarov vardı, Qarabağ mərmər kombinatının, o vaxt tikinti materialları kombinatı idi, onun direktoru idi. "Məşhur" "Krunk" təşkilatının rəhbəri. Sonra Ermənistan Ali Sovetinin, "DQMV"nin deputatı da seçilmişdi. O mərmər yataqları əslində Şuşanındı. Zərrin bağı deyilən ərazidədi. Manuçarov mərmər ehtiyatlarını daşıyırdı, qazanc əldə etdi, separtatçıları silahlandırdı. Qarabağ Avtomobil Nəqliyyatı İstehsalat Birliyinin sədri də, "Qarabağ" stadionunun direktoru da, o zaman Xankəndidəki varlı, vəzifədə olan ermənilər hamısı separatçılıqla və talançılıqla məşğul idilər. 1990-cı illərin əvvəllərində Azərbaycan hökuməti onları həbs etdi, ümumilikdə 102 nəfər Şuşa həbsxanasına salındı. Sonra hərəsi bir yolla azad olundu, soyqırımlara da başçılıq etdilər, separatçı hökumətdə təmsil olundular.

**- Sizcə, aksiya necə sonlanacaq?**

- Deyə bilmərəm. Çünki son hədəfin nə olduğunu bilmirəm. Onu deyə bilərəm ki, birinci növbədə aksiyanın gedişində hər hansı insidentin, hər hansı təxribatın başvermə ehtimalının sıfır olmasına çalışmaq lazımdır. Tam hazırlıqlı olmalıyıq. Təbliğat da düzgün qurulmalıdır. Qarabağda separatçılıq yeni baş qaldıranda bunun əleyhinə olan ermənilər vardı. Onları separatçılar özləri müxtəlif yollarla, vasitələrlə aradan götürürdülər ki, işə mane olmasınlar. Mən 100 faiz əminəm ki, indi də ermənilər arasında Azərbaycan dövlətinin vətəndaşı olaraq sakit, rahat yaşamaq istəyən, buna can atan ermənilər var. Sizə bir faktı deyim. Mən 1998-ci ildə Xankəndiyə səfər edəndə orada bir erməni mənə yaxınlaşıb dedi ki, 200 nəfərlə, Azərbaycan bayrağını əllərində tutaraq cəbhə xəttini keçməyə hazırdırlar. Mənə dedi ki, bunu daxili işlər naziri Ramil Usubova çatdır. Bilirsiz də, sabiq daxili işlər naziri Xankəndi doğumludur, orada işləyib. Mən o erməniyə söz verdim ki, çatdıracam. Bakıya qayıdanda çox çalışdım ki, nazirlə görüşüm. Mümkün olmadı, amma nazirlikdəki digər şəxslərə bunu dedim, ətraflı danışdım ermənının dediklərini. Görünür, o zaman məsləhət olmayıb, ya nəsə başqa səbəb vardı ki, Xankəndidə yaşayan ermənilərin xahişi, istəyi nəzərə alınmadı. Dediyim odu ki, ermənilər arasında separatçılığın, Azərbaycandan ayrılmanın, müharibənin əleyhdarları olub, indi də var. Onlardan istifadə edilməlidir. Onlar qorxurlar açıq müraciət etməyə, bilirlər ki, separatçılar günlərini qara edəcək, öldürəcəklər, işgəncə edəcəklər. Qarabağ münaqişəsi həll edilməmiş qaldığı zamanlarda ermənilər arasında Xankəndini tərk edib getmək istəyənlər çox idi. Onlara icazə verilmirdi. Biz bilirdik ki, ermənilər Qarabağdan çıxmaq üçün bir neçə post keçirlər, postlarda da rüşvət təklif edirlər ki, onları buraxsınlar, yollarını kəsib geri qaytarmasınlar. Xankəndidə zorla saxlanılan ermənilər çox olub. Onlar istəmirdilər övladları hansısa boş, mənasız xülyanın qurbanı olsun. Onların da beyni, düşüncə qabiliyyəti var da. Bilirdilər ki, gec-tez Azərbaycan torpaqlarına sahib çıxacaq, bu vəziyyət ömürlük belə qalası deyil. Başlarının çarəsinə baxmaq istəyirdilər, ancaq separatçılar imkan vermirdi. İndi də belədir. Bu reallıqları nəzərə alaraq biz erməni əhalisinə daha çox müraciət etməli, bəyanatla çıxış etməliyik. Onları inandırmağa çalışmalıyıq ki, Azərbaycan dövləti, Azərbaycan ordusu sizi qoruyacaq. Onları öz tərəfimizə çəkməliyik.

**- Kərim bəy, hər gün məlumat verilir ki, sülhməramlılara məxsus neçə avtomobil keçidi maneəsiz təmin edilib. Sual yaranır axı, bu sülhməramlılar nə aparır, nə daşıyır bu avtomobillərdə? Bu qədər avtomobil keçidi olar?**

- ... Bu, ordudur. Sülhməramlı olsa da. Bunun təminatı var, bəlkə qəfil harasa göndərirlər. Ola bilər, əsəbləri yoxlayırlar. Ona görə deyirəm ki, hər cür təxribat fürsətini sıfıra endirməliyik.

**- Azərbaycan tərəfinin o avtomobillərə baxış keçirmək hüququ var? Bilməyək o avtomobillərdə nə aparıb, nə gətirirlər?**

- Belə məsələlər tərəflər arasındakı razılaşmadan asılı olur. İmzalanmış sənəddə sülhməramlı kontingentin avtomobillərinin yoxlanması barədə nə yazılıb, nəsə bir bənd varmı, yoxmu, bilmirik. Hesab edirəm ki, biz sülhməramlıların rəhbərliyi ilə münasibətləri yaxşı saxlamalıyıq. Onlar Xankəndidə, müvəqqəti nəzarətlərində olan ərazilərdə nə qədər insana kömək edir, bu kömək nədən ibarətdir, bu barədə məlumatlı olmalıyıq. Əsas isə daim mənəvi cəhətdən hücumda olmalıyıq. Öz üstünlüyümüzü, qalib olduğumuzu hər fürsətdə yada salmalı, erməni əhalisinə də bizimlə birgə yaşamaqdan başqa yolları olmadığını başa salmalıyıq.

**Məlahət Rzayeva**



# Azərbaycan haqlıdır

## Ermənistan xaricdə yaşayan ermənilərin gücündən mədət umur

**Vaşinqtonda Ermənistan Gənclər Federasiyasının nümayəndələri Azərbaycan səfirliyinə gedən 34 yolu bağladığını və bununla guya, ölkəmizin Laçın yolunu "bağlamasına" etirazlarını bildiriblər.**

ABŞ-dəki Azərbaycan diasporunun nümayəndələri məlumat verib ki, ermənilərin aksiyası zamanı qarşıdurma və xəsarət alan olmayıb: "Səfirlik əməkdaşlarının həyatına qarşı heç bir təhlükə yoxdur". Bildirilib ki, erməni gənclər ötən gün kiçik bir aksiya təşkil ediblər və qısa müddətdən sonra dağılışıblar.

Milli Cəbhə Partiyasının sədr müavini Tural İrfan "Şərq"ə deyib ki, Ermənistan dalana dirəndiyini gözəl bilir. Xaricdə yaşayan ermənilərin gücündən mədəd umur ki, bəlkə nəsə dəyişikliyə nail ola bildi. Ekspertə görə, bu, həmin dövlətlərə müraciət edilməlidir. Ermənilər tarixən müxtəlif ölkələrdə çoxsaylı terror aktları törətmiş bir toplumdur. Əsasən xaricdəki diasporalarımız aktiv olmalı, ayıq-sayıqlığı qorumalıdırlar. Azərbaycanın haqlı tərəf olduğunu, heç bir ermənini blokadada saxlamadığını, ancaq öz torpaqlarında qərar tutduğunu bəyan etməlidirlər. ABŞ-də erməni lobbisi və müxtəlif şəxslərin əli ilə ermənilər istəyir ki, Ağ Evin diqqətini çəksinlər. mümkün deyil: "Xaricdə yaşayan ermənilərin keçirdiyi aksiyalar və zorakılıq halları pislənməlidir. Çünki Azərbaycan haqlı tərəfdir. Lakin Xarici İşlər Nazirliyimizin xətti ilə həm səfirliklərimizin, həm də xaricdə yaşayan soydaşlarımızın təhlükəsizliyi məsələsi həmin dövlətlərin diqqətinə çatdırılmalıdır. Səfirliklərimizin təhlükəsizliyinin gücləndirilməsi üçün Laçın yolunda Azərbaycan öz suveren ərazisindədir, müdaxilə isə xaricdəndir. Bu, yolverilməzdir. Qarabağda yaşayan erməniləri heç kəs sürgün etmir, nə də təzyiq göstərmir. Özləri istəsələr, Azərbaycan vətəndaşı kimi qala, əgər istəməsələr, ərazini tərk edə bilərlər".

**İsmayıl Qocayev**

# İran Türkiyəni özünə ən böyük rəqib sayır

## Ona görə iki ölkə arasında münasibətlərin normal olduğunu düşünmək üçün heç bir əsas yoxdur

**İranın xarici işlər naziri Hüseyn Əmir-Abdullahian Türkiyəyə səfər edib. İranlı nazir öncə Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu ilə görüşüb. Daha sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən qəbul edilib.**



***Tehran Türkiyənin Cənubi Qafqazda və Orta Asiyada geopolitik mövqelərini möhkəmləndirməsindən qətiyyən məmnun deyil***

Görüşlərdə Tehran və Ankara arasında müxtəlif sahələrdə əməkdaşlıq, o cümlədən mühüm regional və beynəlxalq məsələlər müzakirə olunub. Abdullahianı İran Prezidenti İbrahim Rəisinin də yaxın dönəmdə Türkiyəyə səfər edəcəyini söyləyib.

*Politoloq Elçin Xalidbəyli "Şərq"ə açıqlamasında bildirib ki, İran rəsmilərinin Türkiyəyə səfər etməsi əlbəttə ki, müsbət addımdır. Çünki son vaxtlar rəsmi Tehran daha çox Ermənistanla yaxın münasibətlər qurması ilə diqqəti çəkir:* "Bu, İranın xarici siyasət kursunda əsas istiqamətə çevrilmiş kimi görünür. Ancaq İran xarici işlər nazirinin Türkiyəyə səfərini iki ölkə arasında münasibətlərin normal olduğunu düşünməyə qətiyyən əsas vermir. Çünki bu iki qonşu ölkə arasında kifayət qədər geopolitik problemlər, ziddiyyətlər mövcuddur. Rəsmi Tehran Türkiyənin Cənubi Qafqazda və Orta Asiyada geopolitik mövqelərini möhkəmləndirməsindən qətiyyən məmnun deyil. Əksinə, rəsmi Ankaranın bu uğurlarını İranın maraqlarına təhdid hesab edir. Ona görə də iranlı nazirin Türkiyə səfəri çərçivəsində müəyyən müsbət məzmunlu açıqlamalarla yanaşı, rəsmi Tehranın Cənubi Qafqazda sərhədlərin dəyişdirilməsi ilə barışmayacağı ilə bağlı ənənəvi tezisi yenidən təkrarlaması o qədər də gözlənilməz deyil".

**Analitikin fikrincə, bütün bunlar onu göstərir ki, İran da Ermənistan kimi öz sərhəd qonşuları ilə daha yaxın və effektiv münasibətlərə o qədər də həvəsli deyil:** "Rəsmi Tehran Türkiyəni İranın əsas rəqiblərindən biri hesab edir. Yəni İranın Türkiyə ilə münasibətlərinin normal olduğunu düşünmək üçün heç bir əsas yoxdur.

Halbuki rəsmi Tehran regional proseslərdə ortaq maraqlar çərçivəsində iştirak etməyə həvəs göstərmiş olsaydı, bu həm İranın, həm də onun qonşularının xeyrinə olardı. Hazırda rəsmi Tehran ABŞ və Qərbin sərt təzyiqləri altında qalıb. Ona görə də İranın önəmli qonşularından biri olan Türkiyə ilə gərgin münasibətləri nisbətən yumşaltmağa ehtiyac duyur. Əgər rəsmi Tehran Türkiyə ilə normal münasibətlərin qurulmasında səmimi və davamlı olarsa, bu, Azərbaycan-İran ziddiyyətlərinin aradan qaldırılmasına birbaşa təsir göstərə bilər. Ancaq hələlik bunun belə olacağını iddia etmək üçün heç bir real addım atılmayıb. Əksinə, İran Ermənistanla münasibətlərin daha da inkişaf etdirilməsində israrlı davranır. İran Ermənistanın Azərbaycana və Türkiyəyə qarşı ciddi problem olaraq qalmasına çalışır. Hətta yaxın vaxtlarda İran və Ermənistan paytaxtlarının Tehran və İrəvanın qardaş şəhərlər elan edilməsinə hazırlıq aparıldığı da bildirilir".

**İsmayıl Qocayev**

# Türkiyə və Suriya prezidentləri görüşəcək

## Burada əsas vasitəçi rolunda İran və Rusiyadır



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan İran xarici işlər naziri Hüseyn Əmir Abdullahianı qəbul edib. Görüş Ədalət və İnkişaf Partiyasının Baş Ofisində mətbuata qapalı şəkildə keçirilib.**

**Görüşün gizlinlərini "Şərq"ə açan politoloq Sədrəddin Soltan bildirib ki, İranla Türkiyə arasındakı münasibətlər əvvəlki illərə nisbətən normallaşıb:** "Amma son zamanlar İranın Azərbaycana qarşı tutduğu mövqe və Türkiyəyə terrorçu göndərməsi iki ölkə arasındakı münasibətlərdə gərginliyə səbəb olub.

Bununla belə rəsmi Ankara rəsmi Tehrana qarşı elə də ciddi etirazlar sərgiləmir. Çünki Türkiyə əsasən Suriya ilə münasibətlərin normallaşmasına çalışır.

Burada əsas vasitəçi rolunda isə İran və Rusiya dayanır. Bu yaxınlarda Türkiyənin Milli İstihbarat İdarəsi və Müdafiə Nazirliyinin rəhbərləri həmkarları ilə görüşüb. Perspektivdə Türkiyə rəhbəri ilə Suriya prezidenti arasında görüş də planlaşdırılır".

**Analitikin sözlərinə görə, həmin görüşdə masaya yatırılan məsələlərdən biri də Suriya-Türkiyə münasibətləridir:** "Digər tərəfdən rəsmi Tehranın Azərbaycana qarşı mövqeyi və Cənubi Qafqazda yeritdiyi siyasətin də gündəm mövzusu olacağını ehtimal edirəm.

Həmçinin İrandakı etiraz aksiyaları və bu aksiyaların regiona təsirindən də danışıla bilər. Heç şübhəsiz ki, iki ölkə arasındakı qarşılıqlı əlaqələr və İranın Prezidenti İbrahim Rəisinin Türkiyəyə planlaşdırılan səfəri də gündəmdə olub".

**Nihat Müzəffər**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması;**



# 100-dən çox təklif nəzərə alınıb

## "Siyasi partiyalar haqqında" yeni qanun dialoq mədəniyyətinin yüksəlməsinə mühüm töhfə verəcək

**Son illərdə ölkəmizdə demokratik prinsiplərin inkişafına xüsusi önəm verildiyi, bu istiqamətdə ardıcıl və sistemli addımlar atıldığı beynəlxalq aləmdə də etiraf olunur. 2018-ci ildə xalqın böyük əksəriyyətinin etimadını qazanıb növbəti dəfə Prezident seçilən İlham Əliyev ölkəmizdə genişmiqyaslı islahatlara start verdi. Siyasi sistemin daha da təkmilləşdirilməsi, iqtidar-müxalifət dialoqunun intensivləşdirilməsi, siyasi partiyaların fəaliyyətinə əlverişli şərait yaradılması islahatlar kursunun prioritetini təşkil etdi. Bununla da Azərbaycanda yeni siyasi konfiqurasiya formalaşdı və siyasi mədəniyyətin inkişafında keyfiyyətcə yeni mərhələ yarandı.**

Partiyalararası dialoqun möhkəm təməli qoyuldu və bu istiqamətdə bütün imkanlardan istifadə olundu. Vətən müharibəsində ölkədə fəaliyyət göstərən siyasi partiyaların Prezident, Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşməsi tarixi Qələbəmizin qazanılmasında mühüm əhəmiyyət kəsb etdi. İslahatlar qanunların daha da təkmilləşdirilməsi, beynəlxalq standartlara uyğunlaşdırılması zərurətini də yaratdı. Bu yolda ən mühüm addımlardan biri də "Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin hazırlanması, siyasi partiya nümayəndələrinin iştirakı ilə ictimai müzakirələrin keçirilməsi, sonra Milli Məclisdə qanunun qəbul edilməsi oldu. "Siyasi partiyalar haqqında" yeni qanunun qəbul edilməsi prioritet vəzifələrdən biri idi. Çünki bu qanun ilk dəfə 30 il bundan əvvəl qəbul edilmişdi. Bu müddət ərzində respublikamız sürətlə inkişaf edərək dünya birliyində yüksək tribuna qazanmış, nüfuzlu beynəlxalq tədbirlərin keçirildiyi ölkəyə çevrilmiş, əlaqələri daha da genişlənmişdi. Ən başlıcası, dünyada qalib Azərbaycan kimi tanınmışdı. Belə bir şəraitdə siyasi partiyaların da öz işlərini müasir tələblər səviyyəsində qurmaq zərurəti yarandı. Əksər siyasi partiya rəhbəri Milli Məclisin sədrinə müraciət edərək "Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin hazırlanmasının vacibliyini bildirdilər. Dünyanın 20-dən çox aparıcı ölkəsinin təcrübəsi və Venesiya Komissiyasının siyasi partiyaların fəaliyyətinin tənzimlənməsi üzrə 2010-cu və 2020-ci illərdə qəbul etdiyi tövsiyələri nəzərə alınaraq qanun layihəsinin hazırlanması prosesi başlandı. Venesiya Komissiyasının tövsiyəsi əsasında əvvəlcə layihənin geniş ictimai müzakirələri keçirildi. Əlliyə yaxın siyasi partiya 250-dən çox təklifini rəsmi qaydada Milli Məclisə təqdim etdi. Şəffaflığın maksimum səviyyədə təmin olunması məqsədilə qanun layihəsi parlamentin saytında yerləşdirildi. Sosial Tədqiqatlar Mərkəzi tərəfindən qanun layihəsində əksini tapmış əsas məsələlərlə bağlı 40 sualdan ibarət ictimai rəy sorğusu keçirildi. Milli Məclisin komitələrində müzakirə olunduqdan sonra plenar iclasda üç oxunuşdan sonra qəbul edildi.

**Millət vəkili Ceyhun Məmmədov bildirib ki, "Siyasi partiyalar haqqında" yeni qanun siyasi partiyalara yeni imkanlar yaradır. Deputat diqqətə çatdırıb ki, Milli Məclisin 16 dekabr 2022-ci il tarixli iclasında "Siyasi partiyalar haqqında" yeni qanun böyük səs çoxluğu ilə qəbul edildi. Beləliklə, Azərbaycanda siyasi partiyaların fəaliyyətini tənzimləyən, siyasi partiyaların münasibətlərini yeni müstəviyə daşıyan, müasir çağırışlara cavab verən hüquqi-normativ aktın bazası daha da təkmilləşdirildi:** "Siyasi partiyalar haqqında" yeni qanunun hazırlanması zamanın tələbidir. Azərbaycanda dövlətçilik ənənələrinin möhkəmləndirilməsi, siyasi proseslərin düzgün tənzimlənməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Məlum olduğu kimi, hazırkı "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanunu 30 il bundan əvvəl - 1992-ci il 3 iyun tarixində qəbul edilmişdi. Heç şübhəsiz ki, dünyada cərəyan edən proseslər, ölkəmizdə formalaşan yeni siyasi konfiqurasiya, müasir çağırışlar, qanunvericilik sahəsində də siyasi sistemin təkmilləşdirilməsi üçün Milli Məclis tərəfindən zəruri addımların atılmasını və "Siyasi partiyalar haqqında" yeni qanunun hazırlanmasını zəruri edirdi. "Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin hazırlanması üçün Milli Məclisin sədrinə müraciət etdilər. Beləliklə, qanun layihəsinin hazırlanması prosesinə demokratik və şəffaf şəkildə başlanıldı. Keçirilən bütün ictimai dinləmə və müzakirələr Milli Məclisin müzakirələrə açıq olduğunu nümayiş etdirdi. Siyasi plüralizmin hökm sürdüyü dinləmədə tədbir iştirakçıları layihə ilə bağlı təmsil etdikləri partiya üzvlərinin iradəsini sərbəst ifadə etmək imkanı əldə etdi. Müzakirələrdə çıxış edən siyasi partiya liderlərinin mövcud problemlərin, qarşıda duran məsələlərin həlli baxımından qanun layihəsinə öz münasibətlərini bildirmələri, onun ayrı-ayrı müddəaları barədə konkret rəy və təkliflərini səsləndirmələri üçün geniş şərait yaradıldı".

**C.Məmmədov qeyd edib ki, ümumilikdə 47 siyasi partiyadan Milli Məclisə yazılı formada təqdim edilmiş 250-dən, Milli Məclisdə komitə və plenar iclaslarda deputatlar tərəfindən irəli sürülmüş 100-dən çox təklif nəzərə alındı:** "Noyabrın 23-də Milli Məclisin İctimai birliklər və dini qurumlar, Hüquq siyasəti və dövlət quruculuğu, İnsan hüquqları komitələrinin birgə iclası keçirildi. Tədbirdə parlamentdə təmsil olunan siyasi partiyaların sədrləri və üzvləri olan deputatlar iştirak edərək qanun layihəsinə edilən dəyişikləri yüksək qiymətləndirdilər.

Qeyd etmək lazımdır ki, "Siyasi partiyalar haqqında" yeni qanun bir sıra vacib məqamlarla diqqəti xüsusi çəkir. Yeni qanuna əsasən, siyasi partiyanın dövlət qeydiyyatı, fəaliyyətinin dayandırılması və ləğvi ilə bağlı mübahisələrə Apellyasiya Məhkəməsi tərəfindən baxılır. Hər kəs bərabər şəkildə siyasi partiya yaratmaq və ya mövcud siyasi partiyaya daxil olmaq hüququna malikdir. Bu hüquq yalnız qanunla müəyyən edilmiş hallarda məhdudlaşdırıla bilər. Qoyulan məhdudiyyətlər həmin hüququn mahiyyətini dəyişməməlidir, qanuni məqsədə yönəlməli və həmin məqsədə mütənasib olmalıdır. Eyni zamanda dövlət qeydiyyatdan keçmiş bütün siyasi partiyaların sərbəst fəaliyyətinə, qanuni mənafelərinə əməl olunmasına bərabər hüquqi şərait yaradılmasına təminat verir. Siyasi partiyaların fəaliyyətinin dövlət tərəfindən hüquqi tənzimlənməsi siyasi plüralizmin təşviqinə xidmət etməlidir. Dövlət büdcəsinin vəsaiti hesabına siyasi partiyalara maliyyə yardımı göstərilir. Qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla, dövlət orqanlarının (qurumlarının), yerli özünüidarəetmə orqanlarının, vəzifəli şəxslərin siyasi partiyaların fəaliyyətinə müdaxiləsinə yol verilmir. Həmçinin Azərbaycan Respublikasının Konstitusiyasını və Azərbaycan Respublikasının qanunlarını pozan siyasi partiyaların fəaliyyətinə yalnız məhkəmə qaydasında xitam verilə bilər".

**Parlament üzvü vurğulayıb ki, qanuna görə, Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsi, ərazi bütövlüyünün parçalanması, hakimiyyətin zorla ələ keçirilməsi və ya saxlanılması, kütləvi iğtişaşlara, terrorçuluğa açıq çağırışlar edilməsinə yol verilmir:** "Eyni zamanda Silahlı Qüvvələrdə, dövlət orqanlarında, yerli özünüidarəetmə orqanlarında, təhsil müəssisələrində siyasi partiyaların təsis edilməsi, siyasi partiyanın dövlət qeydiyyatına alınmadan fəaliyyət göstərməsi qadağandır. Heç şübhəsiz ki, qanunda siyasi partiyaların təsis edilməsi prosesi də tam və geniş şəkildə əksini tapıb. Siyasi partiyalar bu prosedura əməl edərək qeydiyyatdan keçə və Azərbaycanda fəaliyyətlərini davam etdirə bilərlər. Sonda qeyd etmək lazımdır ki, proseslərin təhlili bizi qarşıda yeni çağırışların gözlədiyini göstərir. Bu prosesə biz dövlətçiliyimizin daha da güclənməsi, müstəqilliyimizin daha da möhkəmlənməsi naminə indidən hazır olmalıyıq. Qanun cəmiyyətdə yeni çağırışların, sürətli baş verən hadisələrin, sosial-siyasi tələblərin fonunda Azərbaycanda dövlətlə siyasi partiyalar arasında əməkdaşlığın güclənməsinə, siyasi dialoq mədəniyyətinin yüksəlməsinə mühüm töhfə verəcək".

**İsmayıl**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Azərbaycanda hibrid avtomobillərə maraq artacaq

## Güzəştlər ekoloji cəhətdən daha az təhlükəli avtomobillərin idxalı üçün stimul yaradacaq



**Hibrid avtomobillərinə görə 3 il vergi ödənilməyəcək "Vergi Məcəlləsinə" edilən son dəyişikliklərə görə, istehsal tarixi 3 ildən və mühərrikinin həcmi 2500 kubsantimetrdən çox olmayan hibrid avtomobillərin idxalı və satışı, daha 3 il, yəni 2026-cı il yanvarın 1-dək ƏDV-dən azad edilib. Bu o deməkdir ki, 2020-ci ildən başlayaraq istehsal edilən və mühərrikinin həcmi 2500 kubsantimetrdən çox olmayan hibrid avtomobillərinə görə ƏDV ödənilməyəcək.**

Millət vəkili Vüqar Bayramovun açıqlamasına görə, bu güzəştlərdə məqsəd hibrid avtomobillərinin idxalını təşviq etmək və onların daha çox satışını reallaşdırmaqdır: "Bu, yaşıl enerji prinsipinə uyğun olaraq avtomobil parkında dəyişikliyə səbəb olmağı hədəfləyir.

Güzəştlərin tətbiq olunmasına rəğmən ölkəyə hələ də daha çox istehsal ili köhnə hibrid avtomobillərinin idxal edilməsi həm avtomobil parkının köhnəlməsinə, həm də qəzaların sayının artmasına səbəb olub. Bununla yanaşı, son dəyişiklik dünya bazarında müşahidə edilən qiymət artımları fonunda istehsal ili nisbətən yeni olan hibrid avtomobillərinin xərcinin azaldılması baxımdan vacib idi".

**Nəqliyyat üzrə ekspert, hüquqşünas Ərşad Hüseynov "Şərq"ə açıqlamasında bu güzəştlərin ölkəmizdə hibrid avtomobillərə marağı artıracağını deyib.** Onun sözlərinə görə, bu güzəşt həm də 2 il əvvəl qəbul edilən elektromobillərə ƏDV-nin ləğvi qərarı 2018-ci ilin dekabrında qəbul olunmuş "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"ndan irəli gələn bir məsələdir. Orada göstərilib ki, ekoloji cəhətdən daha az təhlükəli avtomobillərin idxalı üçün stimul yaradılmalıdır.

**Ə.Hüseynov bildirib ki, inkişaf etmiş bəzi dövlətlərdə yaxın 10-15 ildə tam elektromobillərə keçid proqramı var. Burada əsas məqamlardan biri də utilizasiya məsələsidir:** "Yeni istismar müddətini başa vurmuş, texniki cəhətdən müasir tələblərə cavab verməyən avtomobillərin dövriyyədən çıxarılması. Bu, 2018-ci ildə qəbul olunmuş proqramda nəzərdə tutulub. Düşünürəm ki, ölkəyə elektromobillərin idxalı prosesinin asanlaşdırılması ilə yanaşı, proqram çərçivəsində utilizasiya məsələsi də sistemli şəkildə həyata keçirilsə, ölkəmizin avtomobil parkı daha yaxşı və daha təhlükəsiz olar".

**Şəymən**



# Nikah müqaviləsinin adı dəyişdirilsin!

## Millət vəkili təklif edib ki, bu sənəd "evlilik anlaşması" kimi qanunvericiliyə daxil olsun

**"Qız oxuyub qırmızı diplom alır, amma bu, ona heç nə vermir". Bunu Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin iclasında deputat Rauf Əliyev deyib. Parlament üzvü bildirib ki, Parlamentin Elm və təhsil komitəsi ilə birgə dinləmə keçirilməlidir: "Təhsil problemləri birlikdə müzakirə edilməlidir. Bağçalarda, orta məktəblərdə çoxlu problemlər var.**

Elm və Təhsil Nazirliyinə hansısa problemi çatdırırsan, deyir bizlik deyil. Məktəb direktorlarını rüşvət üstündə tuturlar. Bəs onlar təhsili haçan verəcəklər?".

**Parlamentin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova dinləmənin keçirilə biləcəyini qeyd edib:** "Əvvəllər təhsil ocaqlarını qızıl medalla bitirən, əlaçı uşaqları imtahansız qəbul edirdilər. Universiteti qırmızı diplomla bitirənlərə hansısa maraq var idi, dövlət qurumları buna çox böyük diqqət yönəldirdilər. Bir çox ölkələrdə reytinqi yüksək olan təhsil ocaqlarını bitirən uşaqların bir çoxunu artıq dövlət qurumlarında və özəl sektorda nəzarətə götürürlər və hələ universiteti bitirmədən onlara təkliflər gəlir. Hətta NASA-nın da belə layihəsi var. Bu qurumlar uşaqlara təklif edir ki, təhsil haqqını ödəsinlər və onlar universiteti bitirəndə həmin qurumda işləsin. Digər tərəfdən, qırmızı diplomu necə almaları, hansısa formada onların bilikləri yoxlanılmalıdır. Bilmək lazımdır ki, doğrudan bu diplom real diplomdurmu? Bizdə əvvəllər təhsil ocaqları var idi ki, orada təhsilin necə keçirilməsi bizə məlumdur. Sağ olsun, Prezident onları ləğv etdi".

**Komitə sədri Hicran Hüseynova deyib ki, uşaqlara qarşı zorakılıq faktları ilə bağlı məsuliyyət növünün qəbul edilməsinə çox böyük ehtiyac var:** "Bu, xüsusilə uşaqlara qarşı cinsi zorakılıqla bağlı qəbul edilməlidir. Ailə Məcəlləsində uşaq nikahı, erkən nikah anlayışının tərifi verilməlidir. Eyni zamanda nikah yaşına istisna hal hesab olunan 1 yaş güzəştin ləğvi ilə bağlı təkliflərimizi hazırlayıb parlamentə vermişik. Məişət zorakılığı ilə bağlı Cinayət Məcəlləsinə və İnzibati Xətalar Məcəlləsinə əlavə və dəyişikliklərlə bağlı layihəmizi də təqdim etmişik".

**Deputat Sədaqət Vəliyeva nikah müqaviləsinin adının dəyişdirilməsini təklif edib:** "Dinləmələr keçirilməlidir. Nikah müqaviləsinin adını dəyişib, "evlilik anlaşması" kimi qanunvericiliyə daxil etməliyik. İkincisi, bizim ailə məhkəmələrinə ehtiyacımız var. Mövcud məhkəmələrin ailənin niyə dağılması ilə maraqlanmağa vaxtı yoxdur".

Hicran Hüseynova bildirib ki, 25 yanvar tarixində Yeni Azərbaycan Partiyası ilə komitəmizin dəyirmi masası baş tutacaq: "Dəyirmi masada siyasi partiyalarda gender məsələləri müzakirə ediləcək. Bu, hər il keçirilir".

**İsmayıl**

# Ortada artıq böyük pullar dövr edir

## Qarşıdakı illərdə Azərbaycanda virtual daimi nümayəndəlik yaradılacaq




**Son illər Azərbaycanda bir xeyli populyarlaşan tiktok sosial şəbəkəsi Azərbaycan mənbəyindən kifayət qədər gəlir əldə etməsinə baxmayaraq, ölkəmizdə hələ də vergi ödəyicisi deyil.**

Texnobloqer, Mətbuat Şurasının İdarə heyətinin üzvü Fərid Pərdəşünas isə tiktokun yaxın zamanda Azərbaycanda şirkət açıb, vergi ödəyicisi olmağının gözlənilən olduğunu düşünür. Ortada artıq böyük pulların dövr etməyə başladığını vurğulayan ekspert deyib ki, artıq bu istiqamətdə tiktok da işlərə başlayıb və Azərbaycana artıq 2 dəfə rəsmi nümayəndəsini göndərib.

**İKT üzrə ekspert Elvin Abbasovun açıqlamasına görə, 10 milyonluq kiçik bazar olduğumuz üçün nə tiktok, nə də digər sosial şəbəkələr Bakıda ofis açmaqda maraqlıdır:** "Əgər Azərbaycan tiktokdan Azərbaycanda fəaliyyətini rəsmiləşdirib vergi tələb etsə, onlar yerli bazardan birdəfəlik imtina edərlər. Bu isə ölkəmizdəki tiktok istifadəçilərinin ciddi narazılığına səbəb olar. Hansı ki informasiya təhlükəsizliyi ilə bağlı tiktokun müvəqqəti bağlanması zamanı biz bu etirazların şahidi olduq".

İqtisadçı-ekspertlər isə sosial şəbəkələrdən əldə olunan gəlirin vergiyə cəlb olunmamasının yüksək məbləğdə vəsaitin büdcədən yayınması ilə nəticələndiyini zənn edirlər.

**Vergi məsələləri üzrə ekspert Anar Bayramovun sözlərinə görə, hazırkı vəziyyətdə xarici qeyri-rezident sosial şəbəkələrin Azərbaycan mənbəyindən gəlir əldə etməsinə baxmayaraq, hələ də vergiləndirilməsi qanunvericilikdə nəzərdə tutulmayıb.** Amma bu layihə üzərində iş gedir, yəni bu tipli qeyri-rezidentlərin sosial şəbəkələr üzərindən Azərbaycan mənbəyindən əldə etdiyi gəlirlər artıq vergiləndiriləcək və qarşıdakı illərdə Azərbaycanda virtual daimi nümayəndəlik yaradılacaq. Məsələ ilə əlaqədar qanun layihəsinin müzakirəsi aparılır".

Sosial mediadan gəlir əldə edən şəxslərə göndərilən məbləğlərdən 50 faizinin məşhur bloqerlərə, müğənnilərə, influenserlərə çatdığını xatırladan ekspert deyib ki, gəlir əldə etmələrinə baxmayaraq, onlar da öz gəlirlərindən vergi ödəmirlər: "Halbuki, vergi qanunvericiliyimizə əsasən, fiziki şəxslərin sahibkarlıq fəaliyyətinə görə əldə etdiyi gəlirdən 20 faiz dərəcəsi ilə, qeyri-sahibkarlıq fəaliyyətinə görə əldə etdiyi gəlirdən isə 14 faiz dərəcəsi ilə vergiləndirilmə nəzərdə tutulub".

**Şəymən**

# Yaşı artırmaqla, endirməklə heç nəyə nail ola bilmərik

## Bizim hədəfimiz qızların nikah yaşını artırmaq yox, onların təhsil almasına, iqtisadi asılılıqdan azad olmasına nail olmaqdır




**”Ailə Məcəlləsində uşaq nikahı, erkən nikah anlayışının tərifi verilməlidir. Eyni zamanda nikah yaşına istisna hal hesab olunan 1 yaş güzəştin ləğvi ilə bağlı təkliflərimizi hazırlayıb Parlamentə vermişik”.**

Bunu Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, parlamentdə komitə iclasında çıxışı zamanı deyib.

Komitə sədri bildirib ki, uşaqlara qarşı zorakılıq faktları ilə bağlı məsuliyyət növünün qəbul edilməsinə çox böyük ehtiyac var:

”Məişət zorakılığı ilə bağlı Cinayət Məcəlləsinə və İnzibati Xətalar Məcəlləsinə əlavə və dəyişikliklərlə bağlı layihəmizi də təqdim etmişik”.

Qeyd edək ki, hazırda Azərbaycanda nikah yaşı həm qızlar, həm də oğlanlar üçün 18 yaşdır. Ailə Məcəlləsində 17 yaşlı qızların nikahına istisna hallarda yol verilir. Yalnız üzrlü səbəb olduqda ərazi üzrə müvafiq icra hakimiyyəti orqanı nikaha daxil olmaq istəyən şəxslərin xahişi ilə nikah yaşının 1 ildən çox olmayaraq, azaldılmasına icazə verə bilər.

Belə bir icazə olmadıqda nikahın bağlanmasının əsas şərtlərindən biri olan yaş həddi gözlənilmədiyi üçün nikah rəsmi qaydada tanınmır və rəsmi orqanlarda qeydiyyata alınmır. Qanunvericiliyin tələblərinə əməl olunmadan, yaş həddini gözləmədən qeyri-rəsmi ailə quranların dini kəbinləri olsa belə, tərəflər arasındakı faktiki ailə münasibətlərinin heç bir hüquqi əhəmiyyəti olmur. 18 yaşı tamam olmayanlar yetkinlik yaşına çatmayan şəxslər hesab edildikləri üçün qız və oğlanın nikaha razılıq verməsinin də heç bir əhəmiyyəti yoxdur.

***Mehriban Zeynalova: "13-14 yaşlı qızları nişanlayıb "18 yaşı tamam olanda toy edəcəm" demək düzgün deyil. Erkən nişanlama qızların diqqətinin təhsildən yayınmasına səbəb olur"***

*Nikah yaşı yalnız 18 qəbul edilsə, neqativ halların qarşısı alınacaq?*

**”Təmiz Dünya” Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova isə ”Şərq”ə açıqlamasında deyib ki, erkən nikahlar cəmiyyətin ən böyük problemlərindən biridir. Belə hallar ailələrdə münaqişələrə, boşanmalara və nəticədə cəmiyyətdə sosial cəhətdən həssas qrupların sayının artmasına səbəb olur. Erkən nikahların yaratdığı fəsadlar, ortaya çıxardığı problemlər göz önündə olsa da, məsələ həllini tapmır:** ”Halbuki daim erkən nikah məsələsi ilə bağlı maarifləndirmə işi aparılır. Deməli, məsələyə kompleks yanaşılmasa, həll olunmamış qalacaq. Ona görə də biz valideynləri övladlarını erkən nikaha məcbur etməkdənsə onlara təhsil verməyə çağırırıq. Deyirlər ki, bəzi ailələr istəmirlər qızları yük olsun, ona görə ondan tez canlarını qurtarmağa çalışırlar. Ona görə də bu cür sosial həssas ailələri tapıb onları daimi nəzarətdə saxlamaq, həmin ailələrdə böyüyən qız uşaqlarını təhsilə, müxtəlif peşə ixtisaslarına cəlb etmək lazımdır. Erkən nikahla bərabər təhsildən yayınma ilə bağlı vəziyyət araşdırılmalıdır. Yoxsa yaşı artırmaqla, endirməklə heç nəyə nail ola bilmərik. Bizim hədəfimiz qızların nikah yaşını artırmaq yox, onların təhsil almasına, iqtisadi asılılıqdan azad olmasına nail olmaqdır. Bunun üçün də mədəni proqramlar, layihələr həyata keçirilməlidir. Qızlara təhsilin perspektivlərini göstərmək, gələcəyə həvəsləndirmək lazımdır”.

**Nikah yaşına istisna hal hesab olunan 1 yaş güzəştin ləğvinə gəldikdə isə M.Zeynalova hesab edir ki, erkən yaşda nişanlanma ilə bağlı da müəyyən tədbirlər görülməlidir:** ”Evdə xəstəm var deyib 17 yaşlı qızı alıb evə gətirmək düzgün deyil. Əgər kiminsə evində xəstəyə baxacaq adam yoxdursa, bunun üçün Sosial Xidmət Agentliyinə müraciət etsin. Düzdür, nişan mərasimi istənilən yaşda keçirilə bilər. İnsanların psixoloji, fiziki vəziyyəti uyğundursa, 18 yaşına bir az qalmış nişanlana, sonra evlənə bilər. Amma 13-14 yaşlı qızları nişanlayıb ”18 yaşı tamam olanda toy edəcəm” demək düzgün deyil. Erkən nişanlama qızların diqqətinin təhsildən yayınmasına səbəb olur”.

**Şəymən Bayramova**

# Adamın saçı 1 dəqiqəyə ağarır

## “Ölüm yolu”nda 3 günlük dəhşət yaşadı

*(Əvvəli səh: 8-də)*

**Yataqxanalarda qalırdım, bəzən çadırlar qurur, adətən avtobusla, çox nadir hallarda avtostopla gedirdim”.**

Pandemiya dövründən əvvəl ABŞ-yə işləməyə gedən Can, ”Səyahətlərimi maliyyələşdirmək üçün pul lazım idi, 2 il kassir işlədim. Pandemiyanın təsiri səngiyəndə işdən çıxdım və təyyarə ilə Alyaskaya getdim. Mən könüllü iş tapdım. 32 Sibir canavarı olan bir ailəyə kömək edəcəkdim. İtləri xizəyə bağlayıb hər gün qarda qaçmağa aparırdılar. Orada ay yarım işlədikdən sonra Şimal İşıqlarını görmək üçün Ankoricdən Feyrbanksa qatara mindim və ilk gün heyrətamiz aydınlıqla Şimal işıqlarını izlədim.

İndi ömrümün sonuna qədər özüm üçün işləmək istəyirəm. Ona görə də indiki səfərimdə son tarix qoymağı planlaşdırmıram. Bir tərəfdən könüllülükdə xərclərimi minimuma endirərək çalışıram, digər tərəfdən də müxtəlif sosial mediada, xüsusilə yutubda səyahətlərimi videoya çəkib paylaşaraq özümə gəlir əldə etməyə çalışıram. Hazırda yolun lap başındayam, hələ gəlirim yoxdur. Əslində mən çoxdandır xaricə gedirəm və keçmişdə tanıdığım çox səyahətçi yox idi, amma o vaxtlar belə gəlir əldə etmək cəhdim yox idi. Gec də olsa, təslim olmadan videolar istehsal etməyə davam edəcəyəm”.

Dünya turu zamanı başına gələn ən dəhşətli hadisənin bir dostunun məsləhəti ilə ”Ölüm yolu” adlı çox yüksək bir yolda velosiped turuna qatılması olduğuna diqqət çəkən Can Sevinç, ”Bu, yəqin ki, mənim həyatımda ölümə üz-üzə gəldiyim ilk an idi. Daha əvvəl dünyanın ən yüksək nöqtəsində bungee jumping və paraşütlə tullanma ilə məşğul olsam da, belə təhlükəli fəaliyyət görməmişdim. Mən də ”Ölüm yolu”ndan geri dönüş bileti almamışdım, dedim ki, oradan Amazon cəngəlliyinə avtostopla gedəcəm”. Velosipedi icarəyə götürdüyü şəxs ona dəli deyib və ruhdan salmağa çalışıb: ”Sən qayıtmalısan. Yol çox təhlükəlidir. Mənə təyyarə ilə getməyi təklif etdi, qulaq asmadım”. Can ölümə gedən yolda keçirdiyi qəzadan danışıb.

”Ölüm yolu”nda faciəvi qəza keçirən Sevinç qolu, ayağı və belindən ağır yara aldı. Bir il bel çantasını da çiyninə alaraq bir qolu ilə hərəkət edib: ”Gah avtostopla, bəzi yerlərdə isə avtobus və mikroavtobusla hərəkət etdim. O yola bir dəqiqə sərf etsəniz belə, saçlarınız ağarır. Bu, inanılmaz dərəcədə qorxulu bir yol idi. Yalnız son mərhələ 17 saat davam etdi. Ümumilikdə 3 gün səyahət etdim. Qayıdanda təyyarə bileti almağa qaçdım”.

Can Sevinç ”Gezencan” adı ilə hazırladığı videonu yutub və instaqramda paylaşır. Büdcəsi çatmayan səyahətçilər üçün ən məntiqli işin könüllü iş tapan bir sayta üzv olmaq olduğuna diqqət çəkən Can, dünya turuna çıxmaq istəyənlərə bu tövsiyəni verir: ”Getdikləri ölkələrdə yaşayış və yerləşmə pulsuzdursa, yalnız nəqliyyat qalır. Əgər onlar da avtostopla maraqlanırlarsa, bu, daha çox qənaət edəcək. Bunu təkbaşına edən çoxlu kişi və qadın görmüşəm. Öncə vizasız ölkələrdən başlaya bilərlər, hətta ən yaxın ölkələrdən. Zaman keçdikcə cəsarətlə başqa qitələrə gedə bilərlər. Dünyanı səyahət etmək, Eyfel qülləsini görmək, İngiltərədə qırmızı avtobusa minmək və ya Azadlıq heykəlinə getməklə eyni deyil. Dünyada çox gözəl ölkələr, mədəniyyətlər, təbii gözəlliklər var. Mütləq yola çıxmaq lazımdır. İnsan yaşadıqları planeti tanıdıqca özlərini də tanımağa başlayırlar”.



**Turan**




# "Nar" 2023-cü ildə də sosial yönümlü peşə təlimlərinə davam edir

**”Nar” 2023-cü ildə də nitq və eşitmə məhdudiyyətli insanların həyat keyfiyyətinin yüksəldilməsi istiqamətindəki layihələrini davam etdirir.**

Belə ki, mobil operator artıq 4-cü dəfədir ki, ”Təlim Məktəbi” layihəsi çərçivəsində bu gənclərin cəmiyyətə inteqrasiyasına dəstək olmaq üçün peşə təlimləri təşkil edir.Missiya çərçivəsində həmin gənclər üçün əmək bazarında daha çox tələbat olan manikür ustalığı təlimləri keçirilir.

Ümumilikdə 3 ay davam edəcək layihə müddətində nitq və eşitmə imkanları məhdud olan 15-30 yaş arasındakı 10 gənc iştirak edir.Təlimlərin sonunda isə iştirakçılara Əlilliyi olan şəxslərin Peşə-əmək Reabilitasiyası Mərkəzi tərəfindən müvafiq sahə üzrə şəhadətnamə təqdim olunacaq. ”Təlim məktəbi” layihəsinin tərəfdaşı ”Karlara Dəstək” İctimai Birliyidir.

*Qeyd edək ki, ”Nar”ın ”Təlim Məktəbi” layihəsi nüfuzlu beynəlxalq müsabiqə olan Eventiada IPRA Golden World Awards 2019 müsabiqəsində ”KSM üzrə ən yaxşı layihə” nominasiyasında qalib olub.*

*Hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərən ”Nar” son 3 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.*

# Hamilə qadın ölümləri...

## Təkcə həkimlərin suçu deyil, qadınlar da məsuliyyətli olmalıdır

**Tərtər rayonunda hamilə qadın evdə ölüb. Hadisə rayonun Hüsənli kəndində qeydə alınıb. 1995-ci il təvəllüdlü Türkanə Əsədovanın evdə halı pisləşib və qəflətən ölüb. O, 30 həftəlik hamilə olub və hadisə zamanı döl də tələf olub.**



***"Hamiləliyin erkən vaxtlarda diaqnostikası bir sıra xoşagəlməz nəticələrdən qaçmağa kömək edir"***

Faktla bağlı araşdırma aparılır. Qeyd edək ki, iki gün əvvəl isə Göyçayda 8 aylıq hamilə olan Fidan Kərimovanın qəfildən halı pisləşib. Yaxınları dərhal təcili tibbi yardımı köməyə çağırıblar. Ünvana gələn həkim briqadası müayinə edib və onun öldüyünü söyləyib. Qan nümunələrinin analizi nəticəsində hamilə qadının tromboemboliyadan vəfat etdiyi məlum olub.

**Ginekoloq Rəna Həsənəliyevanın sözlərinə görə, hamilələrdə qəfil ölüm hallarının qarşısını almaq üçün hamiləlik öncəsi müayinə, hamiləliyin planlı şəkildə təşkil olunması, vaxt itkisinə yol verməmək məqsədəuyğun hesab edilir:** ”Hamiləlik dövründə hipertonik pozğunluqlar əsas patologiyalardan biridir. Biz tez-tez hamilələrdə bu problemə rast gəlirik.

Bu gün iri şəhərlərdə hamilə qadınların vaxtında qeydiyyata düşməsi problemi yoxdur. Belə arzuolunmaz faktlara, əsasən bəzi kəndlərdə rast gəlinir. Lakin qadınların hamiləlik zamanı həkimlər tərəfindən müayinə edilməyə getməmələrinin bir çox səbəbləri də var. Əksər hallarda qadınların öz reproduktiv sağlamlıqlarına laqeyd yanaşması, sadəcə onların hamiləliyin mümkün mənfi təsirləri haqqında məlumatsız olmalarından irəli gəlir.

Bəzən hamilə qadının ailəsi hesab edir ki, onu doğuşa qədər həkim müşahidəsinə aparmağa ehtiyac yoxdur. Bəzənsə qadınlar müəyyən vaxta qədər hamiləliklərini gizlətməyə çalışırlar və buna görə də həkimə getmirlər. Lakin hamiləliyin erkən vaxtlarda diaqnostikası bir sıra xoşagəlməz nəticələrdən qaçmağa kömək edir.

Antenatal (doğuşaqədərki) xidmət, qadının hamiləlik dövründə müayinə olunması, bir çox xoşagəlməz halların qarşısının alınmasına kömək edir. Amma hamiləliyə hazırlıq dövründə qəfil ölümlərə səbəb olacaq bir sıra xəstəliklərin qarşısını almaq lazımdır”.

**Ginekoloqun sözlərinə görə, bəzən elə hallar olur ki, hər hansı bir xəstəlik üzündən qadının hamilə olması onun üçün əks-göstəriş hesab edilir.** Bu zaman həm gələcək ananın sağlamlığı, həm də dölün inkişafı, hətta həyatı üçün təhlükənin olması ehtimalı xeyli yüksək olur. Hamiləlik planlaşdıran qadınlar əvvəlcədən, yaxud da hamiləliyin ilk aylarında həkim müayinələrinə getmədiyi üçün sonradan qəfil ölümlər yaranır.

**Şəymən**

”AKABE” Açıq Səhmdar Cəmiyyəti
SƏHMDARLARIN NÖVBƏDƏNKƏNAR
ÜMUMI YIĞINCAĞININ ÇAĞIRILMASI BARƏDƏ

BİLDİRİŞ

*Səhmdarların nəzərinə!*

18 fevral 2023-cü il tarixdə ”AKABE” ASC-nin səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir. Yığıncağın keçirilməsi Bakı şəhəri, Binəqədi rayonu, M.Ə.Rəsulzadə qəsəbəsi, Binəqədi şosesi ünvanında yerləşən AKABE-nin binasında, saat 12:00-a təyin edilmişdir. Cəmiyyətin növbədənkənar ümumi yığıncağında iştirak etməyə dəvət edilirsiniz.

**Gündəliyə aşağıdakı məsələlər daxil edilmişdir:**

1.”AKABE” Açıq Səhmdar Cəmiyyətinin ləğv edilməsi və bundan irəli gələn məsələlər (təsviyəçi təyin edilməsi, AR Mülki Məcəlləsinə uyğun olaraq ləğvetmə qaydası və müddətləri və digər məsələlər) müzakirə edilməsi və qərar qəbul edilməsi.

Bildiriş

”Bakı-Pivə” ASC-nin səhmdarlarının nəzərinə !

Cəmiyyət növbəti ümumi yığıncağın 28.02.2023-cü il tarixdə saat 09:00-da keçiriləcəyini elan edir.

Qeydiyyat 28.02.2023-cü il tarixdə saat 08:00-dan 08:45-ə kimi olacaqdır.

COVİD-19 pandemiyası ilə əlaqədar olaraq ümumi yığıncağın keçirilmə üsulu onlayn formatda - ”Microsoft Teams” proqramına qoşulmaqla keçiriləcəkdir.

Qeydiyyat məsələləri, ümumi yığıncağa qoşulmaq üçün linkin alınması və ümumi yığıncağa qoşulma prosedurları üçün 28.02.2023-cü il tarixdə saat 08:00-a qədər bakupivo2023@gmail.com elektron poçtu ünvanı ilə əlaqə saxlayın.

Ümumi yığıncağın gündəliyində aşağıdakı məsələlər müzakirə ediləcək və qərarlar qəbul olunacaqdır:

1.Ümumi yığıncağın sədri və katibin seçilməsi.
2.Cəmiyyətin Müşahidə Şurasının sədri və üzvlərinin seçilməsi
3.Cəmiyyətin 2022-ci maliyyə ili nəticələrinə aid olan hesabatların, mühasibat balanslarının, Cəmiyyətin 2022-ci il üçün mənfəət və zərər hesabatlarının təsdiq edilməsi.
4.Cəmiyyətin 2022-ci maliyyə ilinin nəticələri üzrə illik dividendlərin ödənilməsi.

Elan

Yzbeqova Oksana Ağabəyovnaya məxsus xarici pasport itdiyi üçün etibarsız sayılır.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330
Tirajı: 1550 Sifariş: 162

ŞƏRQ 19 yanvar 2023-cü il № 10 (5771) (cümə axşamı) Son səhifə



## Çərpələng ipləri fəlakətə yol açdı

3-ü uşaq olmaqla 6 nəfər ölüb, 200 nəfər yaralanıb



**Hindistanın Uttarayan əyalətində keçirilən ənənəvi çərpələng festivalı fəlakətlə başa çatıb.**

Uçurtmanın kəndirləri çöldəki insanların boğazına ilişib. Altı nəfər, o cümlədən üç uşaq həyatını itirib. Səlahiyyətlilər 200-dən çox insanın xəsarət aldığını bildirib. Xəsarət alanlar arasında çoxlu uşaq da var.

Həftə sonu festivalı zamanı insanlar qışın yaya çevrildiyi günü qeyd etmək üçün terraslardan və damlardan uçurtmalar uçurublar.

NDTV bildirib ki, Qucarat ştatının Bhavnaqar şəhərində iki yaşlı uşaq atası ilə çölə çıxarkən çərpələng ipinə ilişib.

Başqa bir hadisədə isə üç yaşlı uşaq anası ilə evə gedərkən boynunu çərpələng ipi ilə kəsib.

Festivalda bir çox insan öz çərpələng ipləri ilə digər uçurtmaları kəsməyə çalışır. Bunu daha effektiv etmək üçün iplər şüşə tozları və metallarla daha kəskin hazırlanır. Çərpələng festivalı heyvanlar üçün də təhlükəlidir. Ştat rəsmiləri 1000-dən çox heyvanın, o cümlədən 300-dən çox quşun xəsarət aldığını bildirib.

## ABŞ-də qütb ayısı qadın və uşağı öldürüb

Yerli sakinlər heyvanı güllələyiblər



**ABŞ-nin Alyaska ştatının qərbindəki kəndlərdən birində qütb ayısının hücumuna məruz qalan qadın və uşaq həyatını itirib.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, ABŞ-nin Alyaska əyalət polisindən verilən açıqlamada yerli vaxtla saat 14.30-da Uels şəhərinin ucqar kəndlərindən birində ayı hücumu xəbərinin daxil olduğu bildirilib.

Bölgədə bir çox insanı təqib etdiyi bildirilən qütb ayısının ilkin təsbitlərə görə, bir qadın və uşağa hücum etdiyi vurğulanıb. Ağ ayının yerli sakinlər tərəfindən güllələnərək öldürüldüyü qeydə alınıb. Ölənlərin kimliyi açıqlanmayıb.

**Turan**

## "O, yuxu kimidir..."

Cennifer Lopez həyat yoldaşı Ben Affleki öydü



**Cennifer Lopez və Oskar mükafatlı aktrisa Ben Afflek 21 il əvvəl sürpriz şəkildə ayrılıblar. Ancaq illər sonra yenidən bir araya gələn cütlük 2022-ci il iyulun 16-da Las-Veqasda sadə bir mərasimlə yenidən evləniblər.**

**"Şərq" xarici mediaya istinadən xəbər verir ki, xoşbəxt münasibəti davam edən cütlükdən Lopez "Bu gün" adlı proqrama qonaq olub. Həyat yoldaşına sevgisini hər fürsətdə dilə gətirən Lopez, Affleki bir daha "xəyalpərəst" və "sevgilim" sözləri ilə xarakterizə edib.**

**Evliliyindən də danışan Cennifer Lopez əri Ben Afflek haqqında "O, yuxu kimidir... O, mənim ürəyimə çox şirin gəlir", - deyib. Məşhur müğənni Ben Aflleklə necə eyni evə köçdüklərindən də danışıb. "Bu, həqiqətən böyük bir emosional keçid idi, həm də bütün arzularımızın həyata keçməsi idi", - deyib Lopez.**

**Cennifer Lopez daha sonra 2022-ci ili övladlarını dünyaya gətirəndən bəri keçirdiyi ən qeyri-adi il kimi təsvir edib: "Düşünürəm ki, biz artıq yaşlandıq, artıq daha açıq və aydın olduğumuzun fərqindəyik. Çünki bundan sonra münasibətdə nələr olacağı ilə bağlı artıq sualımız yoxdur. Sona qədər bir yerdəyik", - deyə bildirib.**

**Turan**

## Burakla Fahriyənin ikinci övladı oldu




**Türkiyənin məşhur cütlüyü Burak Özçivitlə Fahriyə Evcənin ikinci övladı dünyaya gəlib.**

**Axşam.az xəbər verir ki, ikilinin övladı bu gün İstanbulda xəstəxanalardan birində dünyaya gəlib. Onlar körpələrinə Kərəm adı veriblər.**

***Qeyd edək ki, Burakla Fahriyənin Karan adlı bir oğlu var.***

## Ancelina Colinin oğlu rəssam olub



**Hollivud ulduzu Ancelina Coli ilə keçmiş həyat yoldaşı Bred Pittin övladlığa götürdüyü oğulları Paks rəssam olub.**

**Axşam.az xəbər verir ki, o, özünə Embtto təxəllüsünü götürüb. 19 yaşlı Paks hazırda Təl-Əvivdəki rəsm sərgisində iştirak etməyə hazırlaşır.**

***Qeyd edək ki, Ancelina ilə Bredin ümumilikdə altı övladı var; bioloji - Şilo, Noks və Vivyen, övladlığa götürülmüş - Maddoks, Paks və Zahara.***



# "Uşaq-adam" sindromu

Yaşına uyğun davranmayanların qarşılaşdığı problemlər

**Özünü bioloji yaş dövrünə uyğun aparmayanlar, "israrla" böyümək istəməyənlər, "adam heç böyüməsin, uşaq qalsın" düşüncəsinə qapılanlar həyatın üzərlərinə qoyacaqları məsuliyyətlərdən yaxa qurtarmağa çalışanlardır və bu anormal dünyagörüşü sayəsində həm ailə üzvləri, həm də ətrafdakılarla ciddi problemlər yaşayırlar.**

"Şərq" "NTV.com.tr"in "Webtekno" mənbəyinə istinadən uşaq qalmağı arzulayan, özünü uşaq kimi aparmaq xasiyyətindən heç cür əl çəkmək istəməyən insanlar barədə araşdırmasını təqdim edir. Mənbə bildirir ki, bu tip insanlar böyüməyi, yetkinliyə çatmağı rədd edirlər. Belə bir həyat tərzi keçirən, kimsənin varlığından xəbərdar olmadan bir adaya sığınaraq orada yaşamağı üstün tutan Peter Pan adlı şəxsin hekayəsi çoxlarına məlumdur. Ətrafımızda onun kimilər çoxdur. Diqqətlə baxsaq, beləl追rini görə bilərik. Bu vəziyyətin yaranmasına çox zaman valideynlər səbəb olur. "Biz nələr gördük, övladlarımız görməsin", deyib övladlarına məsuliyyət hissi aşılamadan böyüdən valideynlər əslində övladlarına rahat bir həyat yaşamaq hissi ötürmüş olur. Belə şəraitdə böyüyən uşaqlar "hər şeyi valideyn edəcək", düşüncəsinə qapılır və "böyümürlər". Çiyinlərini həyatın gətirdiyi yükün altına vermirlər. Bu, xatırladılan Peter Pan sindromu - uşaq-adam sindromudur. Sindromun əlaməti fərdin qarşı tərəfdən - partnyorundan daim asılı görünmək, köməyə,





yardıma ehtiyac duymaq, ən kiçik işlərdə başqasına möhtac olmaq, tapşırılan işi icra edə bilməyəcəyinə inanaraq onu başqasına tapşırmaqdır. Belə durumlarda qarşı tərəfin - bu, ailə üzvləri də ola bilər, həyat yoldaşı da, düşdüyü vəziyyətdən yorulması, bezməsi, nəhayət, etiraz səsini ucaltmasıyla nəticələnir ki, sonda ailələrdə böyük problemlər yaranır, durum hətta ayrılmağa, boşanmağa qədər gedib çıxır. "The Conversation" tərəfindən aparılmış bir tədqiqatda qadınların çoxu kişiləri onlardan asılı vəziyyətdə təsvir edib. Bu isə ev işlərinin böyük bir hissəsini məhz qadınların icra etməsinə bağlıdır. Qadınlar üçün həyat yoldaşları yetişkin kişidən daha çox anasına - qadına bağlı birisi kimi görünür. Bu səbəblə də qadın-kişi münasibətləri deyil, qadın-uşaq münasibətləri formalaşır ki, nəticədə bu, qadınla kişinin intim həyatına da mənfi təsir edir. Kişilər bəzən məsuliyyəti tamamilə qadınlara yükləyir, qadınlar da bu durumdan şikayətçi olurlar. Kişilərsə, "mən dahiyəm, amma bunu anlamırlar" deyərək, qarşı tərəfə üstünlüklərini göstərməyə çalışır. Belə vəziyyət hər iki tərəfi qıcıqlandırır. Bu vəziyyət təkcə kişilərlə məhdudlaşmır. Həyat yoldaşına həddindən artıq, lazım oldu-olmadı güvənən, özünü köməksiz, yardıma, dəstəyə möhtac, həyat yoldaşından asılı hesab edən qadınlar üçün də keçərlidir. Belə qadınlar da bəzən kişiləri yorur, bezdirir. Qısası, ailədə kişi də, qadın da daha rahat yaşamaq istəyir və baş rolları bir-birilərinin üzərinə atırlar. Rolların düzgün bölüşdürülməməsi birgə yaşayışda problemlər ortaya çıxarır.

**Məlahət Rzayeva**



# Adamın saçı 1 dəqiqəyə ağarır

"Ölüm yolu"nda 3 günlük dəhşət yaşadı

**Hər zaman uşaqlığına dönməyi xəyal edən Can Sevinç yay aylarında işləyərək yığdığı pulla ilk səyahətlərini Türkiyəyə edib. Könüllü kimi çalışaraq yaşayış və yemək xərclərini ödəməyən səyyah, "Ölüm yolu"nda qorxulu anlarını bölüşüb, büdcəsi olmayan, lakin səyahət etmək istəyənlərə məsləhətlər verib.**

Can Sevinç səyahət macərasına heç bir uzunmüddətli plan qurmadan, yalnız pulu olanda başlayıb. Akdeniz Universitetindən məzun olan Sevinç mövsümi işlərdə çalışaraq qazandığı pulla səyahət etdikdən sonra uzun müddət bir işdə çalışıb və bir neçə ölkəni görməyə başladığı səfərindən düz 16 ay sonra Türkiyəyə qayıdıb. İlk hədəfi Mərkəzi Amerika olsa da, Cənubi Amerikanı da siyahısına əlavə etdikdən sonra dünyanı gəzib Türkiyəyə gəlmək idi. Beləliklə, o, Yaponiya, Kamboca, Avstraliya, Yeni Zelandiya və İndoneziyaya da səfər edib.

Zaman-zaman Türkiyədə də işləyən Can bu şəkildə işləmək və pul yığıb səyahətə çıxmaq çox çətinləşəndə yeni üsul tapıb. O həm də könüllü olaraq səyahət edir. Səyahət zamanı pulu azaldığından iş tapıb və bəzi ölkələrdə işləyib. Can könüllülükdən başqa taksi sürücüsü, xadimə, ofisiant, barmen,



pizzacı, barista, sahə işçisi, kassir, yanacaqdoldurma məntəqəsinin nasos işçisi, zəngçi və bələdçi kimi pul qazanıb.

İlk getdiyi ölkə "Vork and Travel" proqramı ilə işləmək üçün getdiyi ABŞ oldu. Səyahət etmək üçün ilk olaraq Cənubi Afrika Respublikasına gedən Can, "O vaxtlar imkanım olduğu qədər səyahət edirdim, amma indi daha peşəkar oldum. İndi mən könüllü işlə məşğul olaraq səyahət edirəm və eyni zamanda özümə gəlir gətirməyi hədəfləyən yutub üçün videolar hazırlayıram. İlk dünya turumda olanda bütün pulum 18 min dollar idi və bu mənə 16 ay çatdı.

*(Davamı səh: 7-də)*

**Turan**

## Dünyanın ən yaşlı sakini öldü

Lusil Randon 117 yaşı ərəfəsində koronavirusa yoluxsa da, sağalmışdı



**Dünyanın ən yaşlı sakini hesab edilən Fransa vətəndaşı Andre bacı (Lusil Randon - əsl adı) ömrünün 118-ci ilində vəfat edib.**

Bu barədə "Agence France-Presse" məlumat yayıb.

Qeyd olunub ki, Andre qocalar evində dünyasını dəyişib. Lusil Randon 117 yaşı ərəfəsində koronavirusa yoluxsa da, sağalmışdı. Lusil Randon 11 fevral 1904-cü ildə Fransada anadan olub. O, 26 aprel 2022-ci ildən planetin ən yaşlı sakini kimi tanınıb.

Randon gəncliyində qubernator işləyib, daha sonra rahibə olub və 28 il Vişi xəstəxanasında çalışıb. Andre bacı adını alan rahibə burada yetimlərə və qocalara kömək edib. 1979-cu ildə Savoyda bir monastırda xidmət göstərib. 2009-cu ildən o, Toulon qocalar evində yaşayırdı.

## 49 yaşlı qadın yorğanına ərə getdi

Toy pandemiyadan əvvəl olsa da, işin üstü indi açılıb



**49 yaşlı Paskal Sellik adlı ingiltərəli qadın öz yorğanına ərə gedib. Yorğanın adı Connidir.**

Bakupost.az xəbər verir ki, onun yorğanla toyuna 150 nəfər qatılıb.

Toy pandemiyadan əvvəl olsa da, işin üstü indi açılıb.

"Əvvəllər mənim çox yorğanım olub, amma Connidən sonra artıq heç birini istəmirəm. Mən ən xoşbəxt, ən pis anımda Conniyə sarılıram. Mən ona sadiqəm. O qısqanc deyil. Ərə gedəndən sonra özümü çox rahat hiss edirəm", - deyə qadın etiraf edib.

Paskalı bir çox televiziya kanalları proqramlara yorğanı ilə birgə dəvət edir.

*Qeyd edək ki, qadın və ya kişilərin sevimli əşyası ilə evlənməsi hadisəsi ilk deyil.*

## Onlarla aktyor "Qızıl Qlobus"da koronavirusa yoluxdu



**Qızıl Qlobus mükafatlandırma mərasimindən sonra onlarla məşhur simanın kovid testi müsbət çıxıb.**

"Medicina" xəbər verir ki, siyahıda Kolin Farrell, Brendan Qlison, Ceymi Li Körtis və Mişel Pfayfer də var.

Siyahının bununla bitməyəcəyi deyilir.

Aktyorlar olduqları yerdə təcrid edilib və müvafiq müalicə alırlar.